www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-8 iyul 2018-ci il Şənbə № 145 (7034) Qiymәti 60 qəpik

**Xəbər**

## Xəzərdə bir gündə üç nəfər batdı

yazısı səh.2-də

**Gündəm**

### Ölkəmizi ən təhlükəsiz dövlətlər sırasında 25-ci edən şərtlər



"Azərbaycandakı sabitlik millətin iradəsinin məhsuludur, bunu hər birimiz qorumalıyıq"

yazısı səh.7-də

### İqtidar AB ilə saziş şərtlərini qəbul etməyə bilər

yazısı səh.6-da

### Azərbaycan bərpa olunan enerji istehsalına özəl sektoru cəlb etməyə çalışır

yazısı səh.7-də

### Ordumuzun irimiqyaslı təlimləri uğurla başa çatdı

yazısı səh.11-də

### Uşaqlar yay tətilini harada və necə keçirsinlər...

yazısı səh.13-də

### Hörmüz boğazının zərbəsi Azərbaycana da dəyə bilər

yazısı səh.10-da

### Ermənistan müttəfiq Rusiyaya qarşı inamsızlıq və təlaş içində

yazısı səh.11-də

### Nazirlik Qum adasında kütləvi balıq ölümünün səbəbini açıqladı

yazısı səh.12-də

### 6 yaşı tamam olmayan uşaqlar məktəbə gedə biləcək

yazısı səh.4-də

### AzTV sədrinə sui-qəsd cəhdi ilə bağlı cinayət işinin məhkəmə istintaqı yekunlaşdı

yazısı səh.14-də

### Bakıda sallaqxanalar üçün yer tapılmır

yazısı səh.12-də

# YUNİS SƏFƏROV TERRORİST ÇIXDI - ELMAR VƏLİYEV İŞİNİN İNANILMAZ SENSASİYALARI

Gəncənin İH başçısına sui-qəsdin motivi ilə bağlı rəsmi açıqlama yayıldı; Yunis Səfərov Qum və Suriyada döyüş təlimləri keçib; başçının general qardaşı isə Rusiya izindən danışdı; Səfərov daha öncə də E.Vəliyevə sui-qəsd cəhdi edibmiş




yazısı səh.5-də

# Putin Ermənistana qəzəbləndi - Moskvadan sərt qərar

Kreml Paşinyanın kadrlarına da şübhəli baxmağa başladı; "Rus NATO-su"nun məxfi məlumatlarının qərbyönlü təhlükəsizlik katibi Armen Qriqoryanın əlinə keçməməsi tələb edildi; rəsmi İrəvanın izahı kara gəlmir...

yazısı səh.8-də



*Zahid Oruc:*

**"Hakimiyyət çevrəsində qərarlaşan adamların böyük bir qismi özlərinin korporativ işləri ilə məşğuldurlar"**

yazısı səh.9-da



**Novruz Məmmədov ARDNF-in Müşahidə Şurasının sədri seçildi**

yazısı səh.2-də



*Elşən Mustafayev:*

**"Partiya sədrləri və funksionerləri artıq sosial şəbəkə fəallarının kölgəsində qalıblar"**

yazısı səh.6-da



# Novruz Məmmədov ARDNF-in Müşahidə Şurasının sədri seçilib

**İyulun 6-da Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib. Dövlət Neft Fondundan "APA-Economics"ə verilən məlumata görə, baş nazir Novruz Məmmədov Dövlət Neft Fondunun Müşahidə Şurasının qərarı ilə Müşahidə Şurasının fəaliyyətdə olan sədri seçilib.**

Məlumatda bildirilib ki, iclasda Dövlət Neft Fondunun 2017-ci il üzrə maliyyə fəaliyyəti haqqında illik hesabat, maliyyə fəaliyyətinin auditinin nəticələri, ARDNF-in 2017-ci il büdcəsinin icrası və fondun 2018-ci il büdcəsində dəyişikliklərin edilməsi məsələlərinə baxılıb.

Müşahidə Şurası ARDNF-in İcraçı direktorunun təqdim etdiyi fondun 2017-ci ildə fəaliyyəti haqqında illik hesabatı, 2017-ci ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun ("Prayswoterhauskupers Audit Azərbaycan" MMC) hesabatını məqbul hesab edib, ARDNF-in 2017-ci il büdcəsinin icrası layihəsinin və ARDNF-in 2018-ci il büdcəsindəki dəyişikliklərin təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunması barədə qərar qəbul edib.



# Azərbaycan Ərəb Neft İnvestisiyaları Korporasiyasını əməkdaşlığa dəvət edib

**Energetika nazirinin müavini Samir Vəliyevlə Ərəb Neft İnvestisiyalar Korporasiyasının (APICORP) İdarə Heyətinin sədri, Səudiyyə Ərəbistanı Krallığının enerji nazirinin müavini Dr. Aabed Al-Sadoun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Energetika Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, görüşdə korporasiya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın inkişafına dair müzakirələr aparılıb. Aabed Al-Sadoun 43 ildir ki, fəaliyyət göstərən korporasiya ilə SOCAR arasında əməkdaşlıq əlaqələrindən, birgə həyata keçirilmiş layihələrdən bəhs edib. Korporasiyanın İdarə Heyətinin növbəti iclasının Bakıda keçiriləcəyi qeyd olunub. Bildirilib ki, belə tədbirlər yeni əməkdaşlıq imkanlarının reallaşdırılmasına töhfə olacaq.

S. Vəliyev ikitərəfli əməkdaşlığı neft-qaz sektoru ilə yanaşı alternativ və bərpa olunan enerji mənbələri sahəsində də inkişaf etdirməyin vacibliyini vurğulayıb. Bərpa olunan enerji sahəsində imkanları və hədəfləri diqqətə çatdıran nazir müavini bildirib ki, hazırda xarici investorların bu prosesdə iştirakının təmin edilməsi, eləcə də beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində işlər aparılır. Azərbaycanda xarici şirkətlərin hüquqlarının qanunla qorunduğunu və əlverişli mühit yaradıldığını deyən S. Vəliyev korporasiyanı ölkəmizdə ABOEM üzrə hər hansı bir layihəni birgə reallaşdırmağa dəvət edib.

Korporasiyanın baş icraçı direktoru Dr. Ahmed Ali Attiga təmsil etdiyi şirkətin bərpa olunan enerji sahəsindəki bir sıra dövlətlərlə əməkdaşlıq etdiyini və investisiya dəstəyi göstərdiyini deyərək, Azərbaycanla da bu istiqamətdə imkanları dəyərləndirəcəklərini bildirib.

Görüşdə neft-qaz, eləcə də qarşılıqlı maraq doğuran digər sahələr üzrə əməkdaşlıq perspektivləri müzakirə edilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Rusiya qazı Cənub Qaz Dəhlizi üçün mənbələrdən biri ola bilər" - SOCAR

**Gələcəkdə Rusiya qazı Cənub Qaz Dəhlizi (CQD) boru kəməri sisteminin doldurulması üçün mənbələrdən biri ola bilər.**

"APA-Economics"in məlumatına görə, bunu SOCAR-ın investisiyalar və marketinq üzrə vitse-prezidentinin müavini Vitali Bəylərbəyov "Moskva-Baku" internet portalına müsahibəsində bildirib.

"Biz dəfələrlə bu barədə söz açmışıq, "Cənub Qaz Dəhlizi" sisteminə Azərbaycandan başqa və ya onunla bərabər yeni mənbələrdən qaz cəlb etməyə dair marağın olduğunu təsdiq edirəm. Yeni potensial mənbələrdən Cənub Qaz Dəhlizinə qazın vurulması imkanları mövcuddur. Bu, Yaxın Şərq, Mərkəzi Asiya və ya Şərqi Aralıq dəniz regionları ola bilər. Bu, Rusiya qazı da ola bilər. Bu mənada heç bir istisna və ya ayrı-seçkilik etmirik, bütün qaz istehsalçıları və sahibləri ilə işləməyə hazırıq", - V.Bəylərbəyov bildirib.

**Onun sözlərinə görə, bu cür əməkdaşlığın inkişafı üçün tədarükçü "qanuni və bu sistemin istifadəsində maraqlı olmalıdır". V. Bəylərbəyov həmçinin məlumat verib ki, ilk növbədə CQD üçün yeni qaz mənbələri qismində "Şahdəniz" yatağından əlavə Azərbaycanın özünün imkanlarına baxılır:** "Hasilata hazırlıq mərhələsində olan "Abşeron" yatağı, "Ümid" yatağının işlənməsinin gələcəkdə genişləndirilməsi və hələlik iri işlərin aparılmadığı "Babək" yatağının onunla birləşdirilməsi layihəsinə dair ideyalar var. Onların hər biri, çox güman ki, CQD üçün nəzərdə tutulan Azərbaycandan gələcək qaz mənbələrinə çevriləcək".



**O, həmçinin bildirib ki, TANAP qaz kəmərinin ilk mərhələsinin vaxtında istifadəyə verilməsi və bu boru kəməri ilə kommersiya qazının tədarükünə başlanması CQD-nin qalan komponentlərinin vaxtında hazır olacağına şübhə yaratmır:** "Layihə maliyyələşdirilir və CQD-nin hər konkret elementinə dair səhmdarlar tərəfindən üzərlərinə götürülən öhdəliklərə uyğun olaraq maliyyələşdiriləcək. Heç şübhəmiz yoxdur ki, bütün xarici borclar banklar və maliyyə institutları ilə razılıqlara əsasən tam həcmdə və vaxtında ayrılacaq. Planlaşdırdığımız kimi, 2020-ci ildə Yunanıstan, Bolqarıstan və İtaliyada bizim qazın istehlakçıları onu müəyyən olunan zaman və tam həcmdə alacaqlar".



# Pakistanın keçmiş baş nazirinə 10 il həbs cəzası verildi

**Pakistanın keçmiş baş naziri Nəvaz Şərif 10 il müddətinə azadlıqdan məhrum edilib.**

"Report" TASS-a istinadən xəbər verir ki, o, vəzifədə olduğu müddətdə korrupsiya cinayəti törətməkdə günahkar bilinib.

Qeyd edək ki, ötən il oktyabrın 19-da Pakistan məhkəməsi keçmiş baş nazir N.Şərifə, onun qızı Məryəm Nəvaza və kürəkəni Məhəmməd Safdara qarşı korrupsiya ittihamı irəli sürüb.

Xatırladaq ki, Nəvaz Şərif 3 dəfə (1990-1993, 1997-1999, 2013-2017-ci illərdə) Pakistanın baş naziri olub. 2017-ci il iyulun 28-də Pakistanın Ali Məhkəməsi onun barəsində baş nazir vəzifəsinə uyğun gəlməməsi ilə bağlı qərar qəbul edib. Bundan sonra N.Şərif istefa verib.



# İstirahət günlərində dənizə gedənlərə xəbərdarlıq

**İstirahət günlərində səyahətə çıxanlar üçün hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumatına görə, ötən günlərlə müqayisədə havanın temperaturu tədricən 4-6 dərəcə aşağı enəcək.**

Böyük və Kiçik Qafqaza səyahət edən insanların nəzərinə çatdırırıq ki, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Havanın temperaturu dağətəyi rayonlarda 26-31, dağlıq rayonlarda isə 23-28 dərəcə isti təşkil edəcək.

Lənkəran-Astara bölgəsinə üz tutanları yağmursuz hava şəraiti gözləyir. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturu 30-35 dərəcə isti təşkil edəcək.

Aran rayonlarında günəşli hava şəraiti olacaq. İyulun 7-də qərb küləyi arabir güclənəcək. Havanın maksimal temperaturu 35-40 dərəcə isti təşkil edəcək.

Naxçıvan MR-da hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Havanın maksimal temperaturu 35-40 dərəcə isti təşkil edəcək.

Paytaxt qonaqlarının nəzərinə çatdırılır ki, yağmursuz hava şəraiti müşahidə olunacaq. İyulun 7-dən iyulun 8-i gündüzədək şimal-qərb küləyinin güclənəcəyi gözlənilir. Havanın maksimal temperaturu 31-36 dərəcə isti təşkil edəcək.

Qeyd olunub ki, küləkli hava şəraiti dənizdə yüksək dalğalanma yaradacaq, bununla əlaqədar əhali çimərliklərdə ehtiyatlı olmağa çağırılıb.

# "Xəzər fəlakətin astanasındadır" - Ramazan Abdulatipov

**"Xəzər dənizinin hüquqi statusu dövlət başçılarının yaxın vaxtlarda Astanada keçiriləcək görüşündə razılaşdırıla bilər".**

APA-nın TASS agentliyinə istinadən verdiyi xəbərə görə, bunu Rusiya Federasiyası prezidentinin Xəzər ölkələri ilə əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Ramazan Abdulatipov deyib. O bildirib ki, Xəzərin hüquqi statusu ilə bağlı 5 ölkə (Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və İran) arasında artıq 25 ildir müzakirələr gedir və nəhayət, bütün tərəflərin razılığa gələ biləcəyi məqam yetişib: "Tamamilə mümkündür ki, Astanada gözlənilən sammitdə Konvensiyanın imzalanması baş versin".

R. Abdulatipovun sözlərinə görə, bu sənəd olmadan aktiv iqtisadi əməkdaşlıqdan danışmaq çətindir. O hesab edir ki, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində gecikmənin davam etməsi ekoloji problemlərin ağırlaşmasına gətirib çıxaracaq: "Bir sıra istiqamətlər üzrə Xəzər fəlakətin astanasındadır, bir neçə il əvvəl imzalanmış Tehran Konvensiyası isə o qədər də effektiv işləmir".

# "Rusiya Qarabağ münaqişəsinin mərhələli və sülh yolu ilə həllinin tərəfdarıdır" - Patruşev

**"Rusiya Dağlıq Qarabağ münaqişəsinin mərhələli və sülh yolu ilə həllinin tərəfdarıdır".**

APA-nın Rusiya bürosunun verdiyi məlumata görə, bunu Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ermənistanlı həmkarı Armen Qriqoryanla görüşündə bildirib.

Görüşdə qeyd olunub ki, Rusiya regionda sabitliyin bərqərar olunmasının, habelə Dağlıq Qarabağ probleminin bütün tərəflərin maraqları nəzərə alınmaqla, sülh yolu və mərhələli həllinin tərəfdarıdır.

# Xəzərdə bir gündə üç nəfər batdı

**Xəzərdə üç nəfər batıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhərinin Sabunçu rayonunda dənizdə 3 nəfərin batması barədə məlumat daxil olub. Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub.**

Sabunçu rayonunda dənizdə (ən yaxın xilasetmə məntəqəsindən təxminən 1-1,5 km aralı, nəzarətsiz ərazi) çimərkən batdığı bildirilən 3 nəfərin axtarışları ilə əlaqədar aparılan əməliyyat nəticəsində iki naməlum kişi meyiti (təxminən 20-25 yaşlarında) aşkarlanıb.

Meyitlər sudan çıxarılaraq aidiyyəti üzrə təhvil veriliblər. Digər şəxsin meyiti gecə saatlarınadək tapılmamışdı.

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018

# Vəzifə başında və vəzifədən alınandan sonra güllələnən məmurlar

## 1993-cü ildən bugünədək xeyli sayda vəzifə daşıyıcısına atəş açılıb

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və mühafizəçisinin şəhər sakini Yunis Səfərov tərəfindən güllələnməsi ölkə gündəminin əsas mövzusudur. Bu şok hadisə bir daha bir mövzunu aktuallaşdırıb: Müstəqillik əldə etdiyimiz son 27 ildə bu tipli hadisələr müxtəlif illərdə Azərbaycanda dəfələrlə baş verib.**

**Azərbaycanda bu tipli sui-qəsdlərin bu günə qədər hansı vəzifəli şəxslərə qarşı edildiyini incələdik.**

**Bu sıradan olan qanlı hadisələri təqdim edirik:**

**1.** 1991-ci il oktyabrın 18-də müstəqillik qazandıqdan bir ay sonra erməni quldurları tərəfindən Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında vurulan "Mİ-8" hərbi vertolyotunda Azərbaycandan yüksək vəzifə tutanlar da həlak olmuşdu. Onların adlarını təqdim edirik:

Tofiq Kazım oğlu İsmayılov - dövlət katibi;

İsmət İsmayıl oğlu Qayıbov - Baş prokuror;

Məhəmməd Nəbi oğlu Əsədov - dövlət müşaviri;

Zülfi Saleh oğlu Hacıyev - Baş nazirin müavini;

Vaqif Cəfər oğlu Cəfərov - millət vəkili;

Vəli Hüsyn oğlu Məmmədov - millət vəkili;

Osman Mirzə Hüseyn oğlu Mirzəyev - Prezident Aparatında şöbə müdiri;

Qurban Hüseyn oğlu Namazəliyev - nazir müavini;



Eduard Hüseynov



Afiyəddin Cəlilov



Rail Rzayev

Rafiq Məmməd oğlu Məmmədov - dövlət katibinin köməkçisi.

**2.** Bakı Ali Hərbi Dənizçilik Məktəbinin keçmiş rəisi, kontr-admiral Eduard Hüseynov 1993-cü il aprelin 23-də yaşadığı binanın önündə qətlə yetirilib.

**3.** 1993-cü ilin 4 iyununda Gəncədə keçmiş korpus komandiri Sürət Hüseynovun AXC hökumətinə qarşı qaldırdığı qiyam nəticəsində onlarla danışıqlara gedən hökumət nümayəndələrindən Prezident Qvardiyasının rəhbəri, 26 yaşlı Tahir Məmmədov qiyamçılar tərəfindən atılan xain atəş nəticəsində öldürülüb.

**4.** 1993-cü il 16 iyunda Gəncəyə icra başçısı təyin edilən Hacı Vaqif (Vaqif Süleyman oğlu Vəliyev) təyinatından bir neçə gün sonra iş otağında güllələnərək qətlə yetirilib.

**5.** 1993-cü il iyunun 15-də Göyçaya soxulan Surət Hüseynovun dəstələri rayon icra hakimiyyəti başçısının müavini İkram Zeynalovu qətlə yetiriblər.

**6.** 1994-cü il sentyabrın 29-da Milli Məclis sədrinin müavini Afiyəddin Cəlilov yaşadığı binanın blokunda qətlə yetirilib. Prezident Yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov da eyni gündə, eyni vəziyyətdə, eyni aqibətlə üzləşib. A.Cəlilovun və S.Rəhimovun 1994-cü il oktyabrın 4-də dövlət çevrilişinə cəhd göstərən XTPD-çilər ("OMON") tərəfindən qətlə yetirildiyi bildirilir.

**7.** 1995-ci ildə 54 saylı Balakən seçki dairəsi üzrə deputat seçilmiş Əli Ansuxski bir il sonra Bakının mərkəzində, Azərbaycan prospektində yerləşən evinin qarşısında məruz qaldığı sui-qəsd nəticəsində odlu silahla qətlə yetirilib.

**8.** 1997-ci il fevralın 21-də o zaman deputat olan tarixçi akademik Ziya Bünyadov yaşadığı evin girişində cinayətkar qrup tərəfindən vəhşicəsinə öldürülüb.

**9**. 1992-93-cü illərdə Azərbaycanın hərbi prokuroru olan Rövşən Əliyev 2002-ci il 13 martda cinayətkar Hacı Məmmədovun dəstəsi tərəfindən qətlə yetirilib.

**10.** Azərbaycan Daxili İşlər Nazirliyi polis polkunun komandiri, polkovnik Fətulla Hüseynov 2004-cü il 14 iyunda yaşadığı binanın qarşısında öldürülüb. Onun da Rövşən Əliyev kimi cinayətkar Hacı Məmmədovun dəstəsi tərəfindən qətlə yetirildiyi barədə iddialar zaman-zaman səslənməkdədir.

**11.** Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı (1993-2009), general-leytenant Rail Rzayev 2009-cu il fevral ayının 11-də naməlum qatil tərəfindən öldürülüb. Hadisə baş verəndən bir müddət sonra baş prokuror Zakir Qaralov jurnalistlərə açıqlamasında R.Rzayevin qətlindən dərhal sonra onun iş otağına qanunsuz müdaxilə olunduğunu və oradan bəzi maddi əşyaların oğurlandığını bildirib. Generalın köməkçisi Aydın Rəfiyev başda olmaqla daha bir neçə şəxsin bu qanunsuz əməllərin gizlədilməsində iştirak etdiyini vurğulayan Z.Qaralov onların bu əməllərinə görə həbs olunduqlarını qeyd edib. Baş prokuror həmçinin saxlanılan şəxslərin generalın qətlində bilavasitə iştirakının olub-olmamasının da araşdırıldığını qeyd edib.

2010-cu ilin noyabrında Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin qərarı ilə Aydın Rəfiyev 9, onun oğlu Anar Rəfiyev 7 il 6 ay, generalın yavəri Anar Həşimov isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Sərdar Cəlaloğlu Ərdoğanı müdafiə edir, təsisçisi olduğu qəzet isə "vurur"...

## ADP sədri: "Bu yazılara cavabı özüm verəcəm"

**ADP sədri Sərdar Cəlaloğlunun təsisçisi olduğu "Hürriyyət" qəzetində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan barədə gedən yazı suallara yol açıb. Belə ki, ADP rəhbəri daim Türkiyədə cərəyan edən proseslərdə Ərdoğana açıq dəstək verib, qardaş ölkəyə indiki vaxtda onun rəhbərlik etməsini vacib sayıb, apardığı siyasətin Türkiyə üçün önəmli olduğunu vurğulayıb.**



Bununla belə, ADP sədrinin mövqelərinə zidd, xüsusilə Ərdoğan iqtidarının əleyhinə yazıların tez-tez təsisçisi olduğu qəzetdə tirajlanması çoxsaylı müzakirələr doğurur.

**S.Cəlaloğlu** "Yeni Müsavat"a açıqlamasında "Hürriyyət"ə tam nəzarət etmədiyini bildirdi: ""Hürriyyət"in təsisçisi statusum var. Onun redaktoru ilə müqaviləm var. Qəzetin yaradıcılıq fəaliyyətinə qarışmıram. Onlar da mənim bütün fikirlərimi verməyə məcbur deyillər. Qəzet kollektivinə göstərişi mən vermirəm. Orada çalışanlar yaxşı bilirlər ki, biz heç vaxt onların yaradıcılıq proseslərinə müdaxilə etməmişik, heç bir tapşırıq verməmişik. Məsələn, görsəm ki, orada fikirlərimə zidd nəsə gedib, buna, sadəcə, mövqeyimi bildirərəm. Vacib deyil ki, hamı mənim kimi düşünsün. Biz çalışırıq ki, "Hürriyyət" kiminsə nəzarəti altında olmasın və bunu ictimaiyyətə çatdıraq. Burada tam müstəqillik, azadlıq var. Hətta zaman-zaman orada maraqlarımıza ciddi zərbə vuran yazılar da gedir. Açığı, deyim ki, qəzetlə düşünüldüyü qədər təmasda deyiləm. Bir çox hallarda baxanda görmüşəm ki, qəzetdə maraqlarıma əks olan, bizə ciddi zərbə vuran yazılar gedib. Belə hallar çox olub. Qəzetə nəzarət etmirəm və belə bir fikrim də yoxdur. Açığı, Ərdoğan barədə gedən yazıya rast gəlməmişəm. Naxçıvandayam, qayıdandan sonra həmin yazı ilə maraqlanacam. Əgər doğrudan da Ərdoğan haqqında orada əsassız yazılar varsa, buna cavabı özüm verəcəm. Qəzetin saytının isə ümumiyyətlə, mənə aidiyyəti yoxdur, hətta qəzetə belə. Düzdür, adları eynidir. Saytın rəhbərliyi tam müstəqildir. Bunu hər kəs bilsin ki, adlar eyni olsa da, "Hürriyyət"in saytı qəzetdən ayrıdır. Bir yerdə nəzarət varsa, orada demokratik mühit tam ola bilməz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**





# Elmar Vəliyevi əməliyyat edən həkimin köməkçisi danışdı

## "Xəstə yaxşı olmadan danışmayacaq"

**Xəbər verdiyimiz kimi, Türkiyədəki Bahçeşehir Universitetinin tibb fakültəsinin dekanı, məşhur beyin cərrahı, professor Türker Kılıç iyulun 4-də Gəncəyə dəvət edilib.**

Türkiyəli cərrah Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov tərəfindən dəvət edilib və xüsusi təyyarə ilə Gəncəyə gətirilib. Türkiyəli həkim elə həmin gün Gəncə Şəhər İcra Hakimiyyətinin güllələnmiş başçısı Elmar Vəliyevi əməliyyat edib.

Modern.az saytının əməkdaşı Elmar Vəliyevi əməliyyat edən məşhur beyin cərrahı, professor Türker Kılıçın köməkçisi ilə əlaqə saxlayıb.

Türker Kılıçın köməkçisi Gəncənin icra başçısı Elmar Vəliyevin səhhəti ilə bağlı məlumat vermək istəmədiyini bildirib.

Köməkçi Türker Kılıçın xəstənin halı tam yaxşı olmayana qədər danışmayacağını vurğulayıb.

"Türker Kılıç hazırda İngiltərədədir. Elmar Vəliyevin səhhəti ilə bağlı əlavə məlumatım yoxdur. Sadəcə, həkim bildirib ki, xəstə yaxşı olmadan danışmayacaq".



# Azərbaycan Diasporuna Dəstək Fondu yaradıldı

**Azərbaycan prezidenti İlham Əliyev Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, Azərbaycan Diasporuna Dəstək Fondunda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilib:

**3.1.** Azərbaycan prezidentinə:

**3.1.1.** Nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

**3.1.2**. icra orqanının yaradılması və onun səlahiyyətlərinin müəyyənləşdirilməsi;

**3.1.3.** Fondun yenidən təşkil və ləğv edilməsi;

**3.2.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

**3.2.1.** Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Fondun strukturunun, işçilərinin say həddinin və əməkhaqqı fondunun təsdiq edilməsi;

**3.3.** Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə:

**3.3.1.** bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlər.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**4.1.** Fondun yaradılması ilə əlaqədar Azərbaycan Respublikası qanunlarının uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.2.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.4.** Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə Fondun fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etsin;

**4.5.** bu Fərmanla təsdiq edilmiş Nizamnamənin 5.1-ci bəndinə uyğun olaraq, Fondun nizamnamə fondunun formalaşdırılmasını bir ay müddətində təmin etsin;

**4.6.** Fondun strukturunu, işçilərinin say həddini və əməkhaqqı fondunu, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, bir ay müddətində təsdiq etsin;

**4.7.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.8.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi:

**5.1.** Fondun dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin.



# "Yardımlıda baş vermiş yanğın nəzarətə götürülüb" - ETSN

**Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin Yardımlı rayonu ərazisində baş verən yanğın tam lokallaşdırılıb.**

APA-nın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, tüstülənmə müşahidə olunan ərazilər nəzarətə götürülüb.

Qeyd edək ki, 5 iyul 2018-ci il tarixində Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin əhatə etdiyi çətin keçilən dağlıq ərazidə baş verən yanğının söndürülməsinə Ekologiya və Təbii Sərvətlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşları və texnikası cəlb olunub, həmçinin yerli icra hakimiyyəti nümayəndələri və rayon sakinləri yaxından köməklik göstərib.

Havaların isti və quraq keçməsi ilə əlaqədar ETSN əhalini təbiət qoynunda olarkən odla ehtiyatlı olmağa, yanğın təhlükəsizliyi qaydalarına riayət etməyə çağırır.




# 6 yaşı tamam olmayan uşaqlar məktəbə gedə biləcək

## Müəllimlərin attestasiyası tamamilə ləğv olunur

**İyulun 6-da Təhsil Nazirliyində "Təhsil haqqında" Qanuna edilmiş dəyişikliklərlə bağlı brifinq keçirilib. Tədbirdə nazirliyin aparat rəhbərinin müavini Fərzəli Qədirov, nazirliyin Hüquq şöbəsinin müdiri Sübhi Kazımov iştirak edib.**

İlk öncə nazirliyin aparat rəhbərinin müavini Fərzəli Qədirov çıxış edərək, "Təhsil haqqında" Qanuna dəyişiklikləri izah edib. Qurum rəsmisi bildirib ki, qanuna 60-dan çox dəyişiklik edilib və iki maddə əlavə olunub: "Qanunda təhsil müəssisələrində psixoloji xidmətin təşkili, ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili, pedaqoji fəaliyyətlə məşğulolma qaydaları, dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydası və digər məsələlərlə bağlı dəyişikliklər edilib".

**Fərzəli Qədirov qeyd edib ki, yeni dəyişikliklərə əsasən, artıq 6 yaşı tamam olmayan uşaqlar da məktəbə qəbul olunacaq. Nazirliyin rəsmisi onu da əlavə edib ki, hər təhsil ilinin sonunadək 6 yaşı tamam olmayan uşaqlar yalnız valideynlərinin müraciəti əsasında qəbul olunacaq:** "Bildiyiniz kimi, "Təhsil haqqında" Qanunda əhəmiyyətli dəyişikliklər olunub. Ümumilikdə qanunun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib. 2 yeni maddə əlavə olunub. Onlardan biri də hər ilin sonunadək 6 yaşı tamam olmayan uşaqların məktəbə qəbul olunmasıdır. Bu təcrübə əvvəllər də var idi. Artıq sentyabrın 15-dək 6 yaşı tamam olanlarla yanaşı xüsusi komissiyanın rəyi əsasında 6 yaşı tamam olmayan uşaqların da məktəbə qəbulu ilə bağlı dəyişiklik edilib. Həmin uşaqlar yalnız valideynlərin müraciəti əsasında məktəblərə qəbul ediləcəklər. Buna görə də bu proses kütləvi xarakter daşımayacaq. Ötən il 6 yaşı tamam olmayan uşaqları yoxladıq, nəticə olaraq gördük ki, həmin uşaqlar da digər uşaqlar kimi suallara cavab verə bilir".

**Fərzəli Qədirovun sözlərinə görə, daha bir dəyişiklik olimpiada qaliblərinin ali məktəblərə qəbulu ilə bağlıdır.**

"Ötən gün dövlət başçısının sərəncamı ilə qəbul edilən "Təhsil haqqında" Qanun bütün pillə və səviyyələri əhatə edib. Onlardan biri də budur ki, respublika daxilində fənn olimpiadalarının qalibləri də istiqamətləri üzrə universitetlərə müsabiqədənkənar qəbul olunsun. Bu barədə müzakirələr aparıldı və sonda bu dəyişiklik edildi. Artıq bunun üçün ölkədə hüquqi baza yaradılıb".

**Təhsil Nazirliyinin Hüquq şöbəsinin müdiri Sübhi Kazımov isə ali təhsilli şəxslərin kollecə qəbulundan söz açıb:** ""Təhsil haqqında" Qanundakı yeni dəyişikliklərə görə, artıq Azərbaycanda ali təhsilli



şəxslər kollecə müsabiqəsiz qəbul oluna biləcək. Hazırda ali təhsilli şəxs ikinci ali təhsil alması üçün müsabiqədən kənar, yəni Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlardan kənar ali məktəbə qəbul oluna bilir. Bakalavr təhsili almış bir şəxs kollecə qəbul olmaq istədikdə, o, mütləq Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda iştirak etməlidir. Bununla bağlı yeni təkliflər hazırlanarkən Dövlət İmtahan Mərkəzi də bizimlə razılaşdı ki, ali təhsilli şəxsin kollecə qəbul olması üçün müsabiqədə iştirakı vacib deyil. Qanuna edilən yeni dəyişiklik ali təhsilli şəxsin kollecə müsabiqədənkənar qəbuluna imkan yaradır. Hazırda hər hansı şəxs kolleci bitirdikdən sonra ali təhsil müəssisəsinə qəbul olmaq üçün müsabiqədən keçməlidir. Qanunun yeni təsdiq olunmuş variantı orta ixtisas müəssisəsini bitirmiş şəxsə ali məktəbə müsabiqədən kənar qəbul olmağa imkan verir. Bununla bağlı qaydalar hazırlanacaq və müəyyən ediləcək ki, hansı ixtisaslar üzrə hansı ali məktəbə daxil olmaq olar və kollecdə toplanan kreditlər ali məktəbdə necə nəzərə alınacaq".

**Sübhi Kazımov həmçinin qeyd edib ki, üzürlü səbəblərdən ali təhsilini yarımçıq qoyan tələbələrə orta ixtisası bitirməsi və əmək bazarına daxil olması üçün diplom veriləcək:** "Yeniliyə əsasən, təhsilini yarımçıq qoyan şəxsin ali məktəbdə oxuduğu dövrdə topladığı kredit oxuduğu ixtisas üzrə subbakalavrda tanınacaq və ona qısa müddət ərzində orta ixtisası bitirmək və əmək bazarına daxil olmaq hüququ verən diplom veriləcək. Bu qayda gələn tədris ilindən qüvvəyə minəcək".

**Sübhi Kazımovun sözlərinə görə, yeni dəyişikliklərə əsasən mütəxəssislər də təhsil müəssisələrində dərs deyə biləcək:** "Bu qayda qanuna edilmiş iki əlavədən biridir. Əvvəllər yalnız pedaqoji təhsili olan şəxslər məktəbdə müəllim işləmək hüququna malik idi. Yeni əlavə hansısa sahə üzrə ali təhsilli mütəxəssislərə xüsusi qaydalar çərçivəsində təhsil müəssisələrində dərs demək imkanı yaradacaq".

**Nazirlik rəsmisi daha bir gözlənilən yeniliyi açıqlayıb. Onun sözlərinə görə, dövlət ümumtəhsil müəssisələrində müəllimlər attestasiyadan deyil, sertifikasiyadan keçəcək. Attestasiya isə tamamilə ləğv olunacaq:** "Məlumdur ki, müəllimlərin hər 5 ildən bir attestasiyası keçirilirdi. Lakin yeni qaydalara əsasən, dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlər yalnız sertifikatlaşdırmadan keçəcəklər. Yəni onların həm attestasiya, həm də sertifikasiyadan keçməsinə heç bir ehtiyac qalmayacaq".

**Nazirlik rəsmisi Fərzəli Qədirov isə son olaraq qeyd edib ki, yeni dəyişikliklərə əsasən bərbərlər, aşpazlar, maşın ustaları və digər iaşə sahəsində çalışan şəxslər bacarıqlarını təsdiq etmək üçün müəyyən mərhələdən keçməklə sertifikat ala biləcək:** "Yəni formal və ya qeyri-formal yolla əldə olunan biliklərin və səriştələrin tanınması üçün mexanizm hazırlanacaq. Bu, Azərbaycan üçün tam yeni qaydadır. Bu gün əmək bazarında çoxlu insanlar var ki, müəyyən şəxslərin yanında hazırlaşmaqla xüsusi bacarıq əldə ediblər. Ancaq onların-bərbərlərin və digər iaşə sahəsində çalışanların nə dərəcədə peşəkar olduğu bilinmir. Yeni qaydaya əsasən, həmin şəxslər bacarıqlarını təsdiq etmək üçün müraciət əsasında müəyyən mərhələdən keçib sertifikat əldə edəcəklər. Onlara peşəkarlıqlarını təsdiq edən sənəd veriləcək".

**Daha sonra nazirlik rəsmiləri mövzu ilə bağlı jurnalistlərin suallarını cavablandırıb.**

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018

**Gəncədə Rusiya vətəndaşı Yunis Səfərovun icra başçısı Elmar Vəliyevə qarşı törətdiyi qanlı aksiyadan 3 gün keçir. Azərbaycanın 2-ci böyük şəhərinin mərkəzi meydanında, Gəncə İcra Hakimiyyəti binasının qarşısında icra başçısı odlu silahdan açılan atəşlə ölümcül yaralanıb, onun mühafizəçisi də qanına qəltan edilib.**



# Yunis Səfərov terrorist çıxdı - Elmar Vəliyev işinin inanılmaz sensasiyaları

## Gəncənin İH başçısına sui-qəsdin motivi ilə bağlı rəsmi açıqlama yayıldı; Yunis Səfərov Qum və Suriyada döyüş təlimləri keçib; başçının general qardaşı isə Rusiya izindən danışdı; Yunis Səfərov daha öncə də E.Vəliyevə sui-qəsd cəhdi edibmiş

Hadisənin motivi barədə müxtəlif versiyalar səslənirdi. Hətta bir çoxları Yunis Səfərovu ‘‘gəncəlilərin qisasını alan qəhrəman’’ da elan etmişdi. Onun xanımı olduğu iddia edilən bir qadının adından yayılan açıqlamada isə Yunis Səfərovun bu əməli "İmam Hüseynin qisasını almaq" cəhdi kimi göstərilmişdi.

İyunun 6-da açıqlanan rəsmi məlumatda isə Gəncədəki olayın terror aktı olduğu əksini tapır.

**Cinayətlə bağlı Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin yaydıqları son birgə məlumat Elmar Vəliyevin terrora məruz qaldığını təsdiqləyir. Baş verən olayla bağlı "Yeni Müsavat"a daxil olan rəsmi açıqlamada deyilir:**

"Xəbər verildiyi kimi, Gəncə şəhərində anadan olmuş Yunis Səfərov 2018-ci il iyul ayının 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyeva və Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşı polis serjantı Qasım Aşbazova odlu silahdan atəş açaraq müxtəlif dərəcəli bədən xəsarətləri yetirmişdir.

Fakt üzrə başlanılmış cinayət işi üzrə həyata keçirilən istinaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, Rusiya Federasiyasının vətəndaşı olan Yunis Səfərovun törətdiyi bu cinayət məqsədyönlü şəkildə həyata keçirilən əvvəlcədən planlaşdırılmış terror aktıdır.

O, 2016-cı ildə İran İslam Respublikasına gedərək 8 ay Qum şəhərində yaşamış və bu müddət ərzində Azərbaycan vətəndaşı olan Rasim Əsədovla birgə Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçmişdir.

2017-ci ildə isə Azərbaycana qayıdaraq Gəncə şəhərinə gəlmiş, həmin ilin iyun ayında odlu silah əldə etmək üçün "Kapitalbank"ın Gəncə filialında postda duran polis əməkdaşına hücum edib, başına küt alətlə xəsarət yetirərək "Makarov" markalı xidməti tapançasını ələ keçirmişdir. Bundan sonra, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevi öldürmək məqsədilə 2018-ci ilin yanvar ayında Elmar Vəliyevi izləmiş, şübhəli davranışı polis əməkdaşının diqqətini cəlb etdiyindən həmin tapançadan atəş açaraq onu yaralayıb hadisə yerindən qaçmışdır. Cari il iyul ayının 3-də isə Gəncə şəhər İcra Hakimiyyətinin qarşısına gələrək, qeyd olunduğu kimi, Elmar Vəliyevi və onun yanında olan polis əməkdaşını qətlə yetirməyə cəhd etmişdir. Araşdırmalar göstərmişdir ki, Yunis Səfərovun terror aktını törətməkdə əsas məqsədi Azərbaycanda şəriət qanunları ilə idarə olunan islam dövləti qurmaq, bunun üçün bir neçə tanınmış dövlət məmurunu öldürməklə respublikada ajiotaj, xaos, vahimə yaratmaq, nəticə etibarı ilə hakimiyyətin zorla ələ keçirilməsini təşkil etmək olmuşdur. O, bu məqsədini həyata keçirmək üçün "Müsəlman birliyi hərəkatı" adından Azərbaycan vətəndaşlarına videomüraciət də hazırlayıb onu xarici ölkədə yaşayan məsləkdaşlarına göndərmiş və iyul ayının 3-də Gəncə şəhərində törətdiyi terror aktı baş tuacağı halda həmin müraciətin respublikada yayılmasını nəzərdə tutmuşdur. Videomüraciətdə Yunis Səfərov "Müsəlman birliyi hərəkatı"nın sədri Taleh Bağırzadənin üç körpəsini başsız qoyan şəxsi öldürmüşəm, bundan nümunə götürün. İslamın düşmənlərini öldürün, Azərbaycanda hakimiyyəti islam birliyi ələ almalıdır" deyərək, ölkə əhalisini respublikanın vəzifəli şəxslərinə qarşı silahlı mübarizəyə qalxmağa çağırış etmişdir.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Y.Səfərovla birgə cinayətin hazırlanmasında iştirak edən mütəşəkkil cinayətkar dəstənin üzvlərindən daha 3 nəfər tutulmuşdur. Bu cinayətkar dəstənin digər üzvlərinin müəyyən edilib məsuliyyətə cəlb olunması üçün tədbirlər davam etdirilir. Eyni zamanda bildiririk ki, terror aktlarına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə çağırış edənlərə qarşı qanunla müəyyən edilmiş ən ciddi tədbirlər görüləcəkdir".

**Baş prokurorun müavini, respublikanın hərbi prokuroru Xanlar Vəliyev də məsələ ilə bağlı "Bizim Yol"a açıqlamasında qardaşına edilən sui-qəsdlə bağlı danışıb:**

"Hazırda vəziyyəti yaxşıdır. İsrailə aparılması ilə bağlı məlumat birmənalı yalandır. Harada olmasının fərqi yoxdur, əsas odur ki, yaxşıdır. Daha da yaxşı olacaq. Mənim qardaşım bir dövlər məmuru kimi çalışıb və dövlətinə sədaqətlə xidmət edib. Onun bütün xidmətləri göz qabağındadır. Gəncə bu gün dünyanın inkişaf etmiş şəhərləri içərisindədir. Sözsüz ki, bu, ölkə prezidentinin də diqqəti, qayğısıdır. Hər kəs Allahı ilə işini görsün. Elmar Vəliyeva heç kim şəxsi məsələlərə görə qəsd eləməyib. Gəncəlilər hər zaman onu sevib, bu gün də sevir. Qaldı ki, Elmar Vəliyevə sui-qəsd məsələsinə, bu, radikal dinçilərin işidir. O adamın özü və anası ermənidir və Rusiyanın xüsusi xidmət orqanlarında çalışır. İndi bundan nəticə çıxarın. Gülmək, ağlamaq, hirslənmək, xoş söz demək və s. insani emosiyalardır, bu, mümkün olan şeydi. Bizim ailəmizdə aldığımız tərbiyə heç vaxt imkan vermir ki, kimisə söyəsən və ya döyəsən... Biz qanunlara hörmətlə yanaşan adamlarıq. Bizim babamız Quranı başdan-ayağa oxuyub tərcümə edirdi, amma biz heç vaxt mövhumatçı olmamışıq. Həmişə də bizə deyib ki, Allaha inanın, dinə inanın. Bir daha deyirəm, Elmar Vəliyevin vəziyyəti yaxşıdır. Onun haqqında yayılan xəbərlər həqiqəti əks etdirmir. Sadəcə, müəyyən müalicə prosesləri, reabilitasiyalar keçməlidir. O da yavaş-yavaş aparılır. Daha da yaxşı olacaq".

***

Rəsmi açıqlamadan aydın olur ki, Y.Səfərov Elmar Vəliyevi bu ilin yanvarında öldürmək istəyib. Həmin vaxt onun hərəkətlərindən polis əməkdaşının şübhələnməsi üzündən cinayət baş tutmayıb, nəticədə polis əməkdaşı güllələnib. Ötən 6 ay ərzində onun necə və harada gizlənməsi, ələ keçməməsi sualı da açıq qalır. Digər tərəfdən, E.Vəliyevə sui-qəsd cəhdi etmiş adam ikinci dəfə ona necə rahatlıqla yaxınlaşa bilib, onun qoruması üçün addımlar atılmaması da maraq doğurur.

Son rəsmi açıqlamaya qədər qanlı olayın motivi bilinmirdi və bu gedişat dövriyyəyə çoxlu versiyaların girməsinə səbəb olurdu. Artıq ortada rəsmi motiv var və belə görünür ki, hadisə dini zəmində törədilib. Yunis Səfərov isə əslində xarici güclərə xidmət edən bir terrorçudur.

İyulun 6-da Yunis Səfərov Xəzər TV-yə də danışıb. O, Gəncədəki hadisəni törətdiyini etiraf edir, tutulandan sonra polis tərəfindən işgəncəyə, təzyiqə məruz qalmadığını, vəkillə təmin olunduğunu bildirir.

Yada salaq ki, hadisədən sonra səslənən əsas versiyalardan biri də məhz icra başçısının dini zəmində güllələnməsi ilə bağlı idi. Bu versiyanı inandırıcı edən bəzi məlumatlar da vardı. Yotube kanalında Yunis Səfərovun həyat yoldaşı olması iddia edilən bir qadının səs yazısı yayılmışdı. Həmin səs yazısında qadın iddia edir ki, icra başçısının Y.Səfərov tərəfindən atəşə tutulması onun müsəlmanların dini inanclarını təhqir edən hərəkətlərə yol verməsi ilə əlaqədar olub. Hətta iddia olunurdu ki, Yunis Səfərov Elmar Vəliyevi müsəlmanları, İmam Hüseyni təhqir etdiyi, Aşura günü şərab festivalı keçirdiyi üçün öldürmək istəyib.

**Bu arada ortada maraqlı bir iddia da var. Xural.com saytının baş redaktoru Əvəz Zeynallı "Yeni Müsavat"a baş verənləri şərh edərkən deyib ki, Yunis Səfərovu tanıyanlar onun Gəncə Şəhər İcra Hakimiyyətində işlədiyini bildiriblər:** "İnandığım mənbələr deyir ki, Yunis Səfərov Moskvada hüquq təhsili alıb, ağıllı və istedadlı şəxsdir. O, bir müddət Elmar Vəliyevin yanında işləyib. Yunis Səfərov Elmar Vəliyevin mühafizəsində də olub. İcra başçısının həyat tərzi, dünyaya baxışı ilə razılaşmayıb və yolları ayrılıb. Aralarında ciddi problemlər, söz-söhbət olub".

**Ə.Zeynallı deyir ki, hadisədən az sonra Gəncədən aldığı məlumatlarda Yunis Səfərovla Elmar Vəliyevin arasında söz-söhbətin başçıya "səni öldürəcəyəm" hədəsi ilə başa çatdığı qeyd olunub:** "Ola bilər ki, Yunis Səfərov bu hədəni gerçəkləşdirmək üçün gedib radikal dini qruplara qoşulub. Bunu istisna etmək olmaz. Bütün hallarda səbəb də ortaya qoyulmalıdır. Hər nə olsa belə, belə Yunis Səfərovun addımına bəraət yoxdur. Ortada konkret qanlı aksiya var və bu, təqdir edilə bilməz. Gəncədə əksəriyyətin Elmar Vəliyevə kin-kudurət bəsləməsi də aydınlaşdırılmalı və nəticə çıxarılmalıdır. Bu qədər zalımlığa yol verilməsinin qarşısı vaxtında alınmalı idi. Bunu etməyiblərsə, niyə belə oldu sualına cavab axtarmalıdırlar"...

### Hüquq fakültəsinin məzunu silaha niyə sarılıb?

**Bu arada mühacirətdə olan jurnalist Qənimət Zahid Yunis Səfərovun kimliyinə aydınlıq gətirən bir status paylaşıb. Q.Zahid facebook divarında bölüşdüyü statusda yazıb ki, Yunis Səfərov Moskvada təhsil alıb:** "Moskva Mədəniyyət və İncəsənət Universitetinin hüquq fakultəsini bitirib. Sonra Moskvada 157 nömrəli orta məktəbdə tarix müəllimi işləyib. Məktəbin keçmiş direktoru ilə danışa bildim. "Yunis olduqca mədəni, ziyalı, kübar bir gəncdi" - dedi".

### Səfərovun atası Moskvada imkanlı biznesmendir, bahalı maşınlar həvəskarıdır

Hadisədən sonra Səfərovun ötən il Rusiya vətəndaşlığı alması haqda məlumatlar yayılmışdı. Lakin məlum olur ki, Yunis Səfərov iddia olunanların əksinə, Rusiya pasportunu ötən il almayıb. Pasportda verilmə tarixi kimi 28.02.2017-ci il göstərildiyi üçün mətbuatda idda edilir ki, Yunis Səfərov həmin tarixdə Rusiya vətəndaşı olub. Halbuki pasportun etibarlılıq tarixi bitdiyi üçün həmin tarixdə yenisi ilə əvəz olunub.

Rusiyada vətəndaşların ünvanları, telefon nömrələri, adlarına olan avtomobillərin seriya nömrələri və digər bu kimi məlumatlar hər kəs üçün açıq olan internet resurslara yerləşdirilir. İnternetdə axtarış verildiyi zaman məlum olur ki, Yunis Səfərovun adına 2004-cü ildə "VAZ-04" və "VAZ-07" markalı avtomobillər olub və qeydiyyat ünvanı kimi Moskva şəhərində yerləşən Demyana Bednoqo küçəsi, 18-ci korpus, mənzil 80 göstərilib. Bu isə o deməkdir ki, iddia olunanların əksinə olaraq, 2004-cü il tarixində Yunis Səfərovun qeydiyyat ünvanı kimi Moskva şəhəri göstərilir. Ünvan məlumatlarına baxıldığı zaman məlum olur ki, Demyana Bednoqo küçəsi, 18-ci korpus, mənzil 80-də 26.09.1983-cü il təvəllüdlü (35 yaş) Səfərov Yunis Rafiq oğlu, 05.01.1959-cu il təvəllüdlü (59 yaş) Səfərov Rafiq Yunis oğlu və 03.09.1926-cı il təvəllüdlü (92 yaş) Səfərov Yunis Rafiq oğlu da qeydiyyatda olublar. Ad və soyadlardan belə görünür ki, Rafiq Səfərov icra başçısına sui-qəsddə ittiham olunan Yunis Səfərovun atasıdır. Milli.az yazır ki, Yunis Səfərovun atası bahalı avtomobillərin həvəskarı olub. Rafiq Səfərovun tərcümeyi-halına baxdığımız zaman məlum olur ki, bu şəxs Rusiyada uzun illər biznes fəaliyyəti ilə məşğul olub. Yunis Səfərovun atası 2006-2015-ci illərdə rəsmi olaraq "TİM MARKET" Səhimdar Cəmiyyətinin əsas səhmdarı olub. Əsasən spirtli içkilər və siqaretin topdansatışı ilə məşğul olan "TİM MARKET"-in 75%-i Rafiq Səfərova məxsus olub. Digər 25%-lik hissəyə isə başqa bir azərbaycanlı Əziz Sadıqov sahib olub. Şirkətin direktoru Aleksandr Kosarevin isə müxtəlif vaxtlarda müxtəlif şirkətlərə rəhbərlik etdiyi bildirilir. Bu şəxsin rəhbərlik etdiyi şirkətlərin bəzilərinin adının Azərbaycanla bağlı olması ("Seymur", "Topaz") onu göstərir ki, o, azərbaycanlılara məxsus biznesin idarə olunmasında iştirak edir. 2015-ci ildə "TİM MARKET"-in ləğv olunduğu göstərilsə də, Aleksandr Kosarevin həmin tarixdən başqa bir şirkətə rəhbərlik etməyə başlaması onu göstərir ki, şirkət yeni adla fəaliyyətini davam etdirir. Yunis Səfərovun atası ilə bağlı maraqlı məqamlardan biri də odur ki, 1997-2002-ci illər ərzində Rafiq Səfərovun adına 10-dan çox bahalı avtomobil qeydiyyata alınıb.

**Yekunda onu deyək ki, bütün məlumatlara görə, Azərbaycanı hansısa xarici güclər qarışdırmaq istəyir. Buna görə də insanlarımız və media quruluşları ayıq olmalı, hər bir təhrik və çağırışı Azərbaycana qəsd cəhdi kimi qiymətləndirməlidir.**

**❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"**



Elşən Mustafayev

# Müxalifətin “kitabını oxuyan” yoxdur - səbəb...

## “Partiya sədrləri və funksionerləri artıq sosial şəbəkə fəallarının kölgəsində qalıblar”

**Son bir həftədə ölkədə bir-birinin ardınca ciddi hadisələr baş verdi. Əvvəllər ümumölkə miqyaslı hər hansı siyasi, ictimai, iqtisadi hadisələr yaşananda müxalifət düşərgəsi ən azından bir araya gəlirdi, toplantılar, bəzən aksiyalar keçirərdi, hökumətdən izahat istənilirdi, tələblər irəli sürülürdü, təkliflər verilirdi. Lakin bu dəfə sosial şəbəkədə mövqe ifadə etməkdən o yana heç bir hərəkətlilik müşahidə olunmadı. Müxalifətin bu cür davranışının səbəbləri maraq doğurur. Burada müxalifətdə “Onsuz da hökumət bizim sözümüzü dinləyən deyil, əksinə, bizi aranı qarışdırmaqda ittiham edəcəklər” fikrinin hakim olması rol oynayır, yoxsa müxalifətin artıq əvvəlki gücünü, ictimai rəyə təsir imkanlarını tam itirməsi?**

**AMİP katibi, siyasi analitik Elşən Mustafayev** “Yeni Müsavat”a bildirdi ki, müşahidə olunan mənzərənin ortaya çıxmasında qeyd olunan hər iki səbəb və digər amillər rol oynayır: “Birincisi, əslində hökumət baş verən enerji böhranı və onun səbəbləri ilə bağlı dərhal obyektiv açıqlamalar verməli idi və müxalifət də buna uyğun öz münasibətini bildirməli idi. Hadisənin ilk günündə belə bir açıqlamanın şahidi olmadıq, əvəzində bir sıra mətbuat orqanları və şəxslər guya hökuməti müdafiə edirmişlər kimi müxtəlif səbəblər gətirməklə baş vermiş olayın havaların isti keçməsindən dolayı yaranmış problem olduğunu sübut etməyə çalışırdılar. Sonradan ölkə prezidenti belə səbəblərin bəhanə olduğunu bildirdi və bunun araşdırılması ilə bağlı sərəncam verməklə deyilənləri alt-üst etdi. Mən bu araşdırmanın hansı səviyyədə olacağı ilə bağlı indidən bir söz deyə bilmərəm. Amma müxalifətin yaranan problemə lazımınca operativ reaksiya verməməsi də bir həqiqətdir. 10-15 il öncə olan siyasi aktivlik, partiyalara münasibət indikindən daha fərqli idi. Məlumdur ki, ölkədə siyasi partiyalar sistemi ictimai rəyə təsir etmək imkanında deyil. Hakim partiya daxil olmaqla, ölkənin bütün siyasi partiyaları bu gün əhalinin az bir hissəsinə təsir etmək iqtidarındadırlar. Bu səbəbdəndir ki, bir çox hallarda müxalifət partiyaları məsələlərə birgə münasibət ortya qoyaraq ictimai müzakirəyə çıxartmırlar. Bunu bu həddə gətirib çıxaranlar əslində özləri üçün daha təhlükəli bir sistemin yaranmasına səbəb olublar və indi onun təsirləri və fəsadları ilə mübarizə apara bilmirlər”.

**E.Mustafayev qeyd etdi ki, nəticədə siyasi partiyalardan boş qalan yeri sosial şəbəkələrdə oturaqlaşmış, etdiklərinə, dediklərinə nəzarət olunmayan virtual müxalifətçilər tutublar. Həmin təbəqənin fəaliyyəti isə daha kəskindir:** “Bu təbəqə insanları maraqlandıran problemləri onların eşitmək istədikləri dildə daha sərbəst və qorxmadan deyirlər. Partiya sədrləri və funksionerləri artıq bu təbəqənin kölgəsində qalıblar. Ona görə də onların hətta sosial şəbəkədə hansısa məsələyə reaksiyaları da diqqəti cəlb edə bilmir. Son hadisə ilə bağlı bir sıra siyasi partiya funksionerləri tərəfindən açıqlamalar olmuşdu, amma dediyim kimi, sosial şəbəkələrin aktivliyinin maksimum olması səbəbindən onların dedikləri kölgədə qaldı. Hesab edirəm ki, bu gün siyasi partiyalar sosial şəbəkələrin arxasınca getmək məcburiyyətindədirlər”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# İqtidar AB ilə saziş şərtlərini qəbul etməyə bilər

## “Bu şərtlərin qəbul edilib-edilməməsi hər ölkənin özünün suveren haqqıdır”

**Xəbər verildiyi kimi, Avropa Parlamenti Avropa Birliyi ilə Azərbaycanın yeni sazişi üçün şərtlər siyahısını qəbul edib. Şərtlərə görə gələcək saziş əsas azadlıqları təmin etməli, həmçinin korrupsiya, çirkli pulların yuyulması və vergidən yayınmaya qarşı mübarizəni nəzərdə tutmalıdır.**

Danışıqlar başa çatana qədər Azərbaycanın öz siyasi və vicdan məhbuslarını azad etməsinin vacibliyi, məhkəmə sistemində islahatlara, iqtisadi cinayətlərə, korrupsiya, pulların yuyulması, vergidən yayınmaya qarşı mübarizəyə dair konkret tədbirlər görülməsinə çağırış edilib. Sənəddə bildirilir ki, Avropa Parlamentinin deputatları ümid edirlər ki, əgər əsas şərtlər yerinə yetirilərsə, 2019-cu ildə AB-Şərq Tərəfdaşlığı sammitinə qədər Azərbaycanla yeni saziş imzalana bilər. Onlar həmçinin təkidlə AB-ni Avropa Parlamenti öz razılığını verməyincə yeni sazişin ilkin qaydada qüvvəyə minməməsini təmin etməyə çağırıblar.

Azərbaycan hökuməti və hakim partiyanın bəzi deputatları Avropa Parlamentinin bu addımının ölkəmizə qarşı təzyiq məqsədi güddüyünü bildiriblər. Bu barədə “Yeni Müsavat”ın dünənki sayında geniş yazılıb.

Bəs Avropa Parlamentinin Azərbaycanın Avropa Birliyi ilə saziş imzalaması üçün şərtlər irəli sürməsinə, Avropa Birliyinə bu şərtlər yerinə yetirilməyincə Azərbaycanla saziş imzalamamaq çağırışı edilməsinə müxalifət düşərgəsi necə yanaşır?

**AĞ Partiyanın sədri Tural Abbaslı bildirdi ki, daha yaxşı olardı indiyə qədər Avropa Birliyi ilə daha sıx əməkdaşlıq, əlaqələr qurulaydı. Hökumət zamanında AB ilə daha sıx əməkdaşlığa imza atsaydı, bu gün belə problemlə üz-üz qalmazdıq:** “Analiz etsək görərik ki, Azərbaycanla eyni vaxtda AB ilə əməkdaşlıq proqramlarına başlamış Ukrayna, Moldova, Gürcüstan və hətta Ermənistan belə, bu münasibətlərdə bizdən çox öndədirlər. Heç kəsə sirr deyil ki, istər NATO, istərsə də AB ilə əlaqələrin daha dərinə getməməsində Azərbaycanın Rusiyadan ehtiyatlanması faktoru dayanır. Hakimiyyət nümayəndələri də dəfələrlə bəyan ediblər ki, bizim xarici siyasətimiz balanslaşdırılmış siyasətdir. Avropa Parlamentinin bəzi şərtlər irəli sürməsi təbiidir, bu onların haqqıdır. Ancaq, bu şərtlərin qəbul edilib-edilməməsi hər ölkənin özünün suveren haqqıdır. Əminəm ki, bizə qarşı irəli sürülən şərtlər əsasən demokratiya, insan haqları və azad mətbuat yönümündədir. Yəni bu tələblərdə qeyri-adi bir şey yoxdur. Ancaq Azərbaycan hakimiyyəti üçün bu şərtlərin bir çoxu icrası mümkün olmayanlar siyahısındadır. Ona görə də böyük ehtimalla AB ilə yaxınlaşma prosesi bir daha uzanacaq. Əgər AB həqiqətən də özünün təməl dəyərləri, elan etdiyi prinsiplər uğrunda çalışırsa, daha real addımlar atmalıdır. Ancaq təəssüf ki, biz illərdir ki, bunun əksini müşahidə edirik. Avropa hər zaman özünün iqtisadi, siyasi, enerji maraqlarına görə demokratik dəyərlərdən imtina edib. Bir sözlə, hazırkı vəziyyət həm Azərbaycan iqtidarına, həm də Avropa strukturlarına sərf edir”.



**AMİP katibi Əli Orucov isə bildirdi ki, Avropa Birliyi Azərbaycanla enerji və nəqliyyat, ticarət sahələrində əməkdaşlıq edir. Lakin demokratiya, qanunun aliliyi, yaxşı idarəçilik, insan hüquqları və əsas azadlıqlara əməl olunması, siyasi məhbusların, vicdan məhbuslarının azad edilməsini, insan hüquqlarının müdafiəsini, əsas azadlıqları və dinc toplaşma azadlığı hüququnun təminini, eləcə də məhkəmə sisteminin qərəzsizliyinə nail olunmasını və digər demokratiya, insan hüquqları ilə bağlı məsələləri şərt olaraq irəli sürür:** “Əslində burada ciddi və qəbuledilməz, dövlətin maraqlarına və təhlükəsizliyinə xələl gətirə biləcək heç nə yoxdur. Əksinə, sadalanan şərtlərə əməl edilməsi milli maraqlarımıza tam uyğun olar. Azərbaycan Avropanın bir parçasıdır və əgər bu məkana inteqrasiya olunmağı səmimi qarşısına məqsəd qoyubsa, o zaman standartları da qəbul etməlidir.

Sivil, demokratik dəyərlərə əməl etmədən Avropa ilə uzun vədəli əməkdaşlıq qurula bilməz. Bu zaman isə ölkənin Avropa Birliyindən daha da uzaqlaşmasına gətirib çıxarır. Rusiya və İran ətraflarında Avropa dəyərlərinə sahib, bu məkana inteqrasiya olunan dövlətlər görmək istəmirlər. Xüsusən də Cənubi Qafqazda bu prosesi hər vasitə ilə əngəlləməyə çalışırlar. Biz hər iki qonşularımızla normal münasibətlərimizi saxlamaqla və onların fundamental maraqlarına ciddi şəkildə toxunmadan tədricən Avroatlantika məkanına qovuşmağa doğru irəliləməliyik. Təbii ki, bu zaman müəyyən problemləri də göz önünə almalıyıq. Bir gün gələcək Rusiyada da, İranda da siyasi sistemlər dəyişərək, xalqın iradəsini əks edən rejimlər qurulacaq.

Odur ki, Azərbaycan indidən irəli sürülən və milli maraqlarımıza zidd olmayan şərtləri, təklifləri həyata keçirməli və Avropa Birliyi ilə sıx əməkdaşlığa, inteqrasiyaya nail olmalıdır. Müqavimət isə daxildə də, xaricdə də ölkəmizə qarşı çarpaz basqıları daha da artıra bilər. Bunun da qarşısında uzun müddət tab gətirmək mümkün deyil”.

**KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublu qeyd etdi ki, Azərbaycana haqsız təzyiqlərin əleyhinədir. Demokratik məsələlərlə bağlı irəli sürülən təkliflərin isə qəbul olunmasını istəyir:** “Azərbaycan müstəqil dövlətdir və onun demokratik dünya ailəsi içində yeri olmalıdır. Biz dünyadan qıraqda qala bilmərik. İnkişafda olan yüksək texnoloji inkişafı və yerləşdiyi coğrafi mövqe diktə edir ki, bizim gələcəkdə dünya idarəçiliyində birbaşa mühüm rolu olan təşkilatlarla əlaqələrimiz güclənsin. Beynəlxalq təşkilatlarla sıx və müntəzəm işlər görülməlidir. İqtidar üçün geniş imkanlar yaranıb, siyasi məhbuslar məsələsini müzakirəyə çıxarmaq, siyasi partiyalara münasibəti yumşaltmaq, seçki məsələsində ölkədə fəaliyyət göstərən partiyalarla birgə müzakirə aparmaq və vətəndaş cəmiyyətini dirçəltməklə Azərbaycanın mövqeyini gücləndirə bilər. İnkişafımız, hətta torpaqlarımızın azad olunması demokratiyadan, demokratik dünya ilə sıx əlaqələrdən, inteqrasiyadan keçir”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018

# Ölkəmizi ən təhlükəsiz dövlətlər sırasında 25-ci edən şərtlər

## "Azərbaycandakı sabitlik millətin iradəsinin məhsuludur, bunu hər birimiz qorumalıyıq"

**Azərbaycan Amerikanın ictimai rəy institutu olan "Qallup"un versiyasına görə, 2018-ci ildə dünyanın ən təhlükəsiz ölkələri siyahısında 25-ci yerdə qərarlaşıb. Report xəbər verir ki, sorğuda 142 ölkədən 15 yaşdan yuxarı 148 min nəfər, eləcə də Azərbaycandan 1000 nəfər iştirak edib.**

Azərbaycan sorğunun nəticələrinə görə 85 bal toplayıb. Qonşu ölkələrdən Gürcüstan siyahıda 17, Ermənistan 69, Türkiyə 72, Rusiya isə 98-ci yeri tutub.

Sorğu zamanı sakinlərə gecələr şəhərdə tək gəzməyin mümkünlüyü, polisin işindən razılıq və son 12 ay ərzində onlara qarşı hücum və ya qarət aktının qeydə alınıb-alınmaması ilə bağlı suallar ünvanlanıb. Sorğunun yekununda reytinq tərtib olunub və ona Sinqapur liderlik edib. Siyahıda ikinci yeri Norveç, İslandiya və Finlandiya bölüşüb. İlk onluğa Özbəkistan, Honkonq, İsveçrə, Kanada, İndoneziya, Danimarka, Sloveniya, Lüksemburq, Avstriya, Çin və Niderland daxil olub.

Azərbaycanın 25-ci sırada qərarlaşmasının təsadüf olmadığı qeyd olunur. Son illərdə dünyanı ağuşuna alan terror aktlarının ölkəmizdə yaşanmaması, eləcə də bu tipli hadisələrin baş verməməsi belə bir nəticəni ortaya çıxarıb. Son günlərdə ölkə daxilində enerji sahəsində baş verənlərdən doğan təhlükəli vəziyyət, eləcə də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin güllələnməsi belə sorğunun nəticələrinə təsir etməyib.

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, müharibə keçmişi olan ölkələrdə sabitliyə nail olmaq o qədər də asan məsələ deyil:** "Azərbaycan müəyyən bir inkişaf yolu keçdi. Ölkəmizdə hər kəs dərk etdi ki, mən qohuma, qonşuya, yaxud da fərqli düşünən insana qarşı qəzəbimi silahla ifadə edə bilmərəm. Doğrudur, bunlar çox qeyri-sabit bir regionda baş verməkdə idi. Biz Qərbdə tədbirlərdə iştirak edəndə bizdən coğrafiyamızı soruşanda deyirik ki, Rusiya və İranın, o cümlədən Osmanlı imperiyasının yadigarı olan Türkiyənin qonşuluğundayıq. Dərhal bizə deyirlər ki, çox ağır bir bölgədəsiniz. Aralıq bir ərazidə sən daim cinahlardan gələn axınların, narkotikdən tutmuş qaçaqmalçılığa qədər, yaxud da terrorçu qrupların hamısının hədəfindəsən. Dediyiniz təhlükəsizlik qiymətləndirmələri və əmsalları konkret olaraq ölçülür. Bu adi şeylərlə ölçülmür. Burada sosial parametrlərdən tutmuş iqtisadi, siyasi şəraitə qədər hamısının özünəməxsus yeri var. Bu sabitlik sakitlik anlamında deyil, daxili bir dinamizmə malikdir. Biz hamımız onu yaxşı anlayırıq ki, bu, yalnız hakimiyyətin sərvəti deyil, bir qüvvəyə malik deyil, bütövlükdə bu millətin üstünlüyüdür və onu daxildə hamımız qeyd edirik. Azərbaycanda son günlərdə enerji sektorunda baş verənlər təkcə iqtisadi ziyanlar vurmadı. Özü ilə bərabər dayanaqsızlıq gətirdi. Vətəndaş liftdə qalırsa, özünə qarşı panik hərəkət törədirsə, fərq etmir ki, sən onu silahla qətlə yetirirsən, yoxsa hansı şəraitdə olur. Bu, müəyyən qədər güvəncimizə xələl gətirmiş oldu. Həmçinin Gəncədə atılan atəşin də səsi Bakıda eşidilmişdi. Bu yaxşı sayıla bilməzdi. Biz onu məramından və məqsədindən asılı olmayaraq qətiyyətlə pisləməliyik. Çünki bu təkcə icraedici orqanın təmsilçisinə qarşı törədilmir. Bizim hamımızın öyündüyü və tanımaq istədiyi hüquqi prinsiplərə ziddir. Hər kəs öz münasibətlərini silahla həyata keçirmək istəsə, gerçəkdən də bu, hamının hamıya qarşı mübarizəsini doğurardı ki, bu da heç kəsə fayda verə bilməzdi. Ona görə də Azərbaycandakı sabitlik millətin iradəsinin məhsuludur. Bunu hər birimiz qorumalıyıq. Əgər haradasa problemlərimiz varsa, onu da anlayışla, dialoqla aradan qaldırmalıyıq. Prezident seçkiləri zamanı ilk debatda ölkədə vətəndaş sülhünün olduğu şəraitdə siyasi qarşıdurmaların, yaxud düşmənçiliyin çox böyük ziyan vurduğunu qeyd etmişdim. Barış üçün yolların aranmasını təklif etmişdim. Bu gün də eyni mövqedə qalıram. Hesab edirəm ki, bu, ziyanlı bir tendensiyadır. İqtidar və müxalif qüvvələr bir-birinin qapısını açmağı bacarmalıdır. Ona görə dediyiniz hesabatlar beynəlxalq münasibətlərə səbəb olur, investorlara təsir edir. Riskli ölkələrə kim təmasda olmaq istəyər?"



**Deputatın Azərbaycanın təhlükəsizliyinin gələcəkdə də qorunacağına inamı tamdır:** "Əminəm ki, ölkə prezidenti regional və beynəlxalq miqyasda prosesləri, maraq qruplarını, əsas da geopolitik tendensiyaları çox yaxşı bilir və görür. Son müşavirədə ölkə rəhbəri məmuru xalq qarşısında üzr istəməyə vadar edərkən həm də məsələnin başqa bir yönü var. Məsələ ondan ibarətdir ki, bir lider daha qlobal savaşları görürkən daxildə zərbə alanda bunu rahatlıqla, məmnunluqla qəbul edə bilməz. Bir yerdə ki, sən bu gün ölkələrarası savaşı görürsən, hər gün masanın üzərinə müxtəlif dairələrin, kəşfiyyat qruplarının təxribatları, bir-birinin əleyhinə səlib yürüşləri gərünür. Necə ki, İran təzədən sanksiyalar dövrünə qaytarıldı. Əvəzində Rusiya ilə münasibətlər daha da kəskinləşməkdədir. Bölgədə də daha mənfi tendensiyalar gedir. Suriyadan ixrac olunan xaos növbəti ünvan axtarır, ənənəvi hakimiyyətləri devirib yerində başqasını qururlar, o da həmin ərazidə baş verənlərə nəzarət edə bilmir. Belə olan təqdirdə əminəm ki, prezident bildiyi və gördüyü hadisələr düzənindən çıxış edərək hər bir məmura, vətəndaşa siqnal edir ki, bunu qorumalıyıq. Sənin mənsub olduğun bir sektorda yaranan böhran, qısa qapanma təsirsiz qalmır. Sonuncu hadisələrdən sonra deyirik ki, iqtisadi ziyanlar da çəkmişik, mənəvi və digər itkilərimizi bir qırağa qoysaq. Siyasi cəhətdən də bunlar ölkədə müəyyən bir dayanaqlığa, güvənə təsir edib. Bunlar olmamalıdır. Bu baxımdan əminəm ki, bu sabitliyi qorumağı hamımız dərk etməkdəyik. Hər kəs başa düşməlidirlər ki, biz sabitliyi birgə qorumalıyıq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycan bərpa olunan enerji istehsalına özəl sektoru cəlb etməyə çalışır

## Agentlik rəsmisi: "Bu sahəyə dövlət vəsaitinin cəlb olunmasına ehtiyac görmürəm"



**İyulun 3-4-də enerji təchizatı sistemində baş verən qəzalar Azərbaycanda alternativ enerji istehsalı istiqamətində görülən işləri yenidən gündəmə gətirdi.**

Qeyd edək ki, hazırda Azərbaycanda elektrik enerjisinin təxminən 8 faizi alternativ enerji mənbələri tərəfindən ödənilir. Günəş və külək enerjisi sayəsində bu rəqəmin 2020-ci ilə qədər 20 faizə qədər artırılması nəzərdə tutulur.

Ölkə prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planında 2020-ci ilədək alternativ və bərpa olunan enerji mənbələri hesabına 420 MVt yeni generasiya güclərinin yaradılması nəzərdə tutulur. Bu prioritet üzrə yeni elektrik stansiyalarının (külək, günəş enerjisi və bioenerji) tikintisinə təqribən 1 milyard 40 milyon manat həcmində investisiya tələb olunduğu proqnozlaşdırılır. Bu hədəfə çatılacağı təqdirdə, ildə 1,6 milyard kVtX/saata yaxın elektrik enerjisinin istehsalına və 390.0 milyon kubmetr təbii qaza qənaət olunmasına imkan yaranacaq. Yol Xəritəsində 2020-ci ilə qədər külək enerjisi üzrə 350 MVt, günəş enerjisi üzrə 50 MVt və bioenerji üzrə 20 MVt olmaqla yeni enerji gücələrinin istifadəyə verilməsi planlaşdırılır.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədr müavini Cəmil Məlikovun BBC-yə verdiyi məlumata görə, indiyədək Azərbaycanda günəş enerjisinin əldə olunması sahəsində 56 milyon manatlıq layihələr həyata keçirilib. Bunun 32 milyon manatı dövlət investisiyasıdır, qalanı özəl. Külək enerjisinin alınması stansiyaları üçünsə 6 milyon manat dövlət vəsaiti ayrılıb.

Ölkədə həyata keçirilən bioenerji layihələri arasında ən böyüyü Balaxanıda tullantılardan istilik enerjisinin alınması layihəsidir.

Bundan əlavə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi 7 kiçik layihə həyata keçirib, heyvandar fermerlər üçün bioqaz qurğusu quraşdırılıb. Qalan layihələr fiziki şəxslər tərəfindən icra edilir.

Nazirlər Kabinetinin 2014-cü ildə qəbul etdiyi qərar əsasında bərpa olunan enerji layihələri üçün qurğu və avadanlıqların Azərbaycana idxalı gömrük rüsumundan və əlavə dəyər vergisindən azaddır. Bunun üçün həmin qurğu və avadanlıqları gətirən şəxslər agentliyə müraciət edib təsdiqləyici sənəd almalıdılar.

**C.Məlikovun sözlərinə görə, Türkiyədə, Yunanıstanda bərpa olunan enerji digər enerjilərdən ucuz başa gəlir:** "Ona görə də insanlar günəş panellərini alıb quraşdırmaqda maraqlıdılar. Azərbaycanda isə qazın, elektrik enerjisinin dəyəri ucuzdur deyə insanlar əlavə xərc çəkib avtonom mənbə yaratmağa ehtiyac görmürlər. Bəzi özəl istirahət mərkəzləri və digər obyektlər var ki, panel quraşdırıb öz enerji tələbatlarını tam olaraq ödəyirlər. Yəni burada maddi maraq olmalıdır. İkinci amil insanların məlumatlılıq səviyyəsidir. Bu texnologiyalar barədə məlumatlılıq artdıqca onlardan istifadə də artacaq".

**Agentlik rəsmisi onu da bildirib ki, Çin hökuməti onlara qrant olaraq 400 ev üçün panellər ayıracaq:** "Biz onları rayonlarda ailələrin evlərində quraşdıracağıq. O qurğuların hesabına enerji təchizatı, həmçinin əlavə gəlirlər əldə etmək imkanlarının olmasını həmin ailələrə və onların qonşularına çatdıracağıq".

Agentlik rəsmisinin dediklərindən aydın olub ki, Sumqayıt Sənaye Texnologiya Parkında günəş fotoelektrik panellərinin, günəş kollektorlarının istehsalına başlanıb. Bundan əlavə, biosobaların istehsalı qurulub, Samuxda onların bir neçəsi quraşdırılıb.

**C.Məlikov deyib ki, Bakı-Quba yolu üzərindəki külək enerjisi stansiyaları əvvəlcə özəl şirkətlər tərəfindən qurulubmuş:** "Sonra onlar bankrot oldular, stansiyalar keçdi Beynəlxalq Banka. Bu yaxınlarda stansiyalar "Azərişıq"a verilib. 20 turbindən 16-18-i işləyir, yaxın zamanlarda onların fəaliyyəti bərpa olunacaq". Ümumilikdə isə Azərbaycanda 60 Mtv gücü olan külək stansiyaları var.

Azərbaycanda satılan günəş panelləri yerli, Avropa və Çin istehsallıdır. Avropa panelləri ən bahalısıdır.

Onu da qeyd edək ki, hökumət bərpa olunan enerji mənbələrinin yaradılması sahəsinə vəsait yatırmaq niyyətində deyil. Bu sahənin özəl investisiyalar sayəsində inkişaf etdirilməsi nəzərdə tutulur. Azərbaycanda enerji tariflərinin dövlət tərəfindən tənzimlənməsi isə bu sahəyə özəl sektorun cəlbini çətinləşdirir. Bu şəraitdə ölkədə bərpa olunan enerji istehsalının yol xəritəsində nəzərdə tutulduğu həcmə - 2020-ci ilədək ümumi enerji istehsalının 20 faizinə çatdırılması çətin ki, mümkün olsun. C.Məlikov deyir ki, bərpa olunan enerjinin istehsalı təbii resurslardan asılıdır: "420 Mvt gücündə stansiyalar qurulsa, xəritədə qoyulan məqsədə nail olacağıq. Bu stansiyalar da özəl investisiyalar hesabına qurulmalıdır. Bunun üçün şərtlər hazırlanmalıdır. Dövlətin bu sahəyə investisiya qoymasına ehtiyac görmürəm. Çünki Azərbaycanda enerji qıtlığı yoxdur. Ölkənin istehsal gücü yetərincədir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018

# Xaric segah



Zamin HACI
zaminhaci@gmail.com

*"Diyari-qürbətdə müddətdi varam,*
*Gecə-gündüz canan deyib ağlaram,*
*Mən də sizin kimi qəribü zaram,*
*Eyləməyin məndən haşa, durnalar!"*

**(Qasım bəy Zakir)**

**Deyir icra başçısına güllə atan xaricdə təlim görüb gəlmişdir. Biz buna qabaqcadan şübhə eləmirdik ki. Məlum şeydir. Bütün pis şeylər xaricdən gəlir. Ermənilər Araza, gürcülər Kürə zibil axıdırlar. İrandan meşok-meşok opium, Rusiyadan pis qızlardan SPİD-ə yoluxub qayıdan qastarbayterlərimiz, Amerikadan xəngəl demokratiyası, Fransadan erməni lobbisi, nə bilim, hansı cəhənnəmdən də daha nələr gəlməkdədir. Hərçənd biz pis şeyləri həm də ixrac edirik, ərazimiz bir növ ötürmə məntəqəsidir. Körpüdür. Qovşaqdır. Misal üçün, indi xaricdə oturub ölkəmizi söyən bəzi mühacirləri ixrac eləmişik. Yaxud vurulan başçını deyirlər İsrail xəstəxanasına aparıblar. Bundan qabaq da keçmiş vergilər nazirini Türkiyəyə qaçırtmışdılar - el dilində desək. Bizdə "qaçırtmaq" feilinin axı dünyanın heç bir başqa yerində rast gəlinməyən bir xilasetmə anlamı da vardır. Adətən belə deyirlər: "Filankəs ağır idi, götürüb Bakıya qaçdıq". Düzü, bilmirəm indi də rayon yerlərində bu ifadə aktualdırmı, yoxsa rayon camaatı da xəstələrini xaricə qaçırdır. Nə isə, qoy dilçiliyin dərdini "APİ"-Leninin filfak məzunları çəksinlər. Biz özümüzü verək transmilli temamızın kölgəsinə.**

İcra başçısını vuran Suriyada, İranda təlim görüb, icra başçısını da yaralarını sağaltmaq üçün İsrailə aparıblarsa, mənə elə gəlir onlar haçansa elə bu Orta Doğu bölgəsində də üz-üzə gəlmişlər. Ara yerdə bizim dövlətçiliyimizə xal düşməzdi. Vallah. Xahiş edirik, kimin kimlə razborkası varsa bunu gedib xaricdə bir yerdə çürütsünlər, qanlarını burada axıdıb zəhmətkeşlərimizi dilxor eləməsinlər. Düzdür, Vətən torpağı uğrunda qan axıtmaq da lazım gəlir, ancaq cəbhə xəttində. Hərçənd dəli şeytan deyir, bu dəqiqə cəbhə xətti hər yerdən keçir, hər yerdə vətən uğrunda savaşmaq lazımdır, icra başçısına da sağalıb gələndən sonra "3-cü dərəcəli igidliyə görə" medalı verilməlidir.

İşıq müşavirəsində bir fikir, təklif də səsləndi: Mingəçevir SES texniki-mənəvi baxımdan köhnəlibdir, onu yoxlamaq üçün xaricdən komissiya gəlsə yaxşı olar. Doğrudan da çox mənəviyyatsız stansiyadır, ara yerdə millətin qanını heç nədən qaraltdı. Bəs yoxlama niyə xaricdən gəlir? Özümüzdə mütəxəssis, alim, ekspert, auditor-filan-beşməkan yoxdurmu? Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda, o cümlədən müxtəlif nazirlik və komitələrə aid elmi institut, araşdırma mərkəzi, nə bilim, texbüro, mıxvüro, basyero idarələri saysız-hesabsızdır. Su problemləri institutundan tutmuş Elektrik Stansiyaları Generatorlarının siyasi irsini araşdırma Fonduna qədər hər cür qurum dövlət büdcəsindən ilbəil saysız mənasız pullar alıb sümürməkdədir. Əgər barmaq yaralananda sidiyi xaricdən alacağıqsa, məni bağışlayın, o zaman məlum orqan nədən ötrüdür?

Əlbəttə, dünyada hər hansı elmin müəyyən mərkəzləri, güclü olduğu yerlər yaranır, bunu təbii qarşılayırıq. Ancaq bizdə deyəsən hər şey xaricdən gəlir axı. Auditordan həkimə, müəllimdən jurnalistə, təxribatçıdan separatçıyacan. Hətta yadıma gəlir, bir ara Şirvan qoruğuna müdiri də Almaniyadan gətirmişdilər, çünki bizimkilərə tapşıranda mütləq ceyranları kabab eləyib şadlıq sarayına satırdılar. Bir də biz bu adi su elektrik stansiyasını analiz edib bir yana çıxarda bilmiriksə, soruşmaq ayıb olmasın, göydə nə işimiz var? Az qala hər il kosmosa peyki nə üçün uçurduruq? Fors üçündürsə, fors-major üçün də bir şey olmalıdır. Yoxsa tfu-tfu, Allah eləməsin, adamın ağlına qara-qura fikirlər gəlir: əgər peykimiz də mənəvi cəhətdən köhnəlsə göydə aləm qarışmazmı? İraq olsun, bir də gördün peyk gumbultuyla düşdü kiminsə təpəsinə.

Özümüzün təpəmizə düşsə yola verərik, dözümlü xalqıq, qorxuruq o da beynəlxalq aləmə düşə. Bu isə respublikamızın beynəlxalq aləmdəki nüfuzuna qətiyyən yaraşmır.

# Putin Ermənistana qəzəbləndi - Moskvadan sərt qərar

## Kreml Paşinyanın kadrlarına da şübhəli baxmağa başladı; "Rus NATO-su"nun məxfi məlumatlarının qərbyönlü təhlükəsizlik katibi Armen Qriqoryanın əlinə keçməməsi tələb edildi; rəsmi İrəvanın izahı kara gəlmir...

**Ermənistanın baş naziri Nikol Paşinyanın NATO sammitinin keçiriləcəyi Brüsselə səfərə ciddi şəkildə hazırlaşması haqda bir neçə dəfə yazmışıq. Xəbər verdiyimiz kimi, 4 gün sonra - iyulun 11-də Belçika paytaxtında NATO-nun iki günlük sammiti olacaq. Gündəlikdəki əsas mövzulardan biri də "Rusiya təcavüzü" ilə bağlıdır. Ancaq belə görünür ki, Moskvanı alyansın gündəliyindən daha çox, satellit Ermənistanın təzə rəhbərliyi və bir də NATO və Avropa Birliyi (AB) yetkililərinin Paşinyanı şirnikləndirmək yönündə verdikləri bəyanatlar qıcıqlandırır.**

"Yeni Müsavat" bir daha qeyd edir ki, həm NATO, həm də mənzil-qərargahı Brüsseldə yerləşən AB rəsmilərinin son açıqlamalarından qənaət hasil olur ki, Qərb "məxməri inqilab"ın banisi Paşinyanı orada səbirsizliklə gözləyir, ona olduqca isti qəbul vəd edirlər. Son olaraq AB-nin işğalçı ölkədəki təmsilçisi Pyotr Svitalski bəyan edib ki, AB-də Nikol Paşinyan çox isti bir münasibətə qonaq ediləcək. Ondan az öncə NATO baş katibinin siyasi məsələlər üzrə köməkçisinin müavini Ceyms Appaturay analoji açıqlama verərək, Alyansın Ermənistanla əlaqələri dərinləşdirməyə və işğalçı ölkədə islahatlara dəstək verməyə hazır olduğunu söyləyib.

Ötən saylarımızda vurğuladığımız kimi, Kremlin bütün bunlara reaksiyası özünü çox gözlətməyəcək. Elə də oldu. Müşahidələr göstərir ki, Brüssel zirvəsi yaxınlaşdıqca Moskvanın İrəvana və ona ard-arda reveranslar edən NATO-ya qəzəbi böyüyür, səbir kasası dolmaq üzrədir.

**Bunu Kremlə yaxınlığı ilə seçilən tanınmış politoloq və avrasiyaçı Aleksandr Duqinin srağagünkü açıqlamasından da görmək olar. Cocuq Mərcanlıya səfər edənlərə hücum çəkənlərə sərt cavab verən A.Diqun onu bildirib ki, Ermənistan axır vaxtlar yanlış olaraq NATO ilə yaxınlaşma xəttini tutub. Sitat:** "İrəvan NATO ilə daha çox yaxınlaşaraq, Rusiyanın Azərbaycanla yaxınlaşmaq üçün istənilən addımını şeytanlaşdırır. Mənim fikrimcə, bu, tamamilə yolverilməzdir. Əgər indiki Ermənistan rəhbərliyi məsuliyyətlidirsə, o, özündən əvvəlkilərin xəttini davam etdirməlidir - 5 rayonu geri verməlidir. Belə çıxır ki, Ermənistan bizim üçün Rusiyaya nəyin faydalı olduğunu, nəyin Rusiya siyasətində yolverilməz olduğunu izah etməlidir? Bu, təhqirdir. Bu, Rusiyaya münasibətdə qeyri-dost münasibətidir".

*****

"Moskva təkcə Nikol Paşinyanın nəzərdə tutulan Brüssel səfərinə görə yox, NATO rəhbərliyinin bu səfərlə bağlı bəyanatlarına da hiddətlənir". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə armenianreport.com nəşrindəki məqalədə deyilir.

"Ermənistan hakimiyyəti Nikol Paşinyanın Brüssel səfəri ilə bağlı, Avropaya onun ilk rəsmi ziyarətlə bağlı olduqca ciddi problem qarşısındadır. Bu, nəinki dəhşətli dərəcədə Rusiyaya xoş getməyib, Moskva, üstəlik, bunu İrəvanın diqqətinə çatdırmağı zəruri bilib. Özü də Moskva səfərlə yanaşı, NATO ali rəsmisi Ceyms Apaturayın səfərlə bağlı bəyanatına da qəzəblənib. Halbuki günlərdir Ermənistan XİN Rusiyaya izah eləməyə çalışır ki, Ermənistan NATO-nun əsas gündəliyində iştiraka yox, Əfqanıstandakı sülhməramlı kontingentdə iştirakla bağlı dəvət olunub. İzaha rəğmən, bütün bunlar Rusiyanı özündə çıxarıb", - erməni nəşr vurğulayıb.

Moskvanın Paşinyan hökumətinə artan qəzəbinə dair daha bir fakt. "Yeni Müsavat"ın məlumatına görə, "Qraparak" qəzeti özünün mənbələrinə istinadən yazıb ki, "Rus NATO-su" sayılan KTMT-yə üzv ölkələr arasında məxfi məlumatlar mübadiləsi məsələsində Paşinyan hökumətinə görə olduqca qəribə vəziyyət yaranıb.

"Məlumatlı mənbələrin bildirdiyinə görə, Rusiyanın təhlükəsizlik dairələri Ermənistanın Təhlükəsizlik Şurasının yeni katibi Armen Qriqoryana etibar etmədiyi üçün Ermənistanın Müdafiə Nazirliyi və Baş Qərargahı üçün nəzərdə tutulan məxfi informasiyaların Təhlükə Şurasından yan ötməsi tələb olunub. Ki, həmin sənədlər Qriqoryanın əlinə keçməsin".

*****

Xatırladaq ki, Ermənistanın KTMT-dən çıxmasının tərəfdarı olan və "Putin, rədd ol!" etiraz aksiyasına qatılmış Armen Qriqoryan da hökumətin əksər üzvləri kimi, Qərbin, Amerikanın adamı sayılır. Bütövlükdə Paşinyan öz komandasını müstəsna olaraq qərbyönlü kadrlardan, "Sorosun uşaqları"ndan qurmaqla, Rusiyanın adamlarını isə kənarlaşdırmaqla onsuz da Moskvanın əsəblərini sınağa çəkib.

Bu fonda işğalçı Ermənistan və onun yeni rəhbərliyi ətrafında baş verənlər, Paşinyanın Brüssel səfəri ətrafında yaşanan gərginlik, İrəvan üçün, yumşaq desək, yaxşı gəlişmələr deyil. Ən əvvəl də o səbəbə ki, Rusiya Ermənistanın əsas silah tədarükçüsü olmaqla yanaşı, Azərbaycanla hərbi balansın yaradılmasında 1 nömrəli dövlət olaraq qalır.



Üstəlik, Moskva işğalçı ölkəyə silah-sursatı Azərbaycandan fərqli olaraq, dünya bazarı qiymətinə deyil, daxili baza qiymətinə, "su qiyməti"nə, çox vaxt da özünün ayırdığı ən aşağı kreditlə verir. Kasad Ermənistanın baha qiymətə başqa ölkələrdən nə silah almaq imkanı var, nə də bütövlükdə Rusiyanı bu sahədə əvəzləyəcək başqa dövlət.

İrəvan üçün Moskvadan üz döndərmək həm də əsas təhlükəsizlik qarantından imtina anlamına gələcək ki, bunun da işğalçı ölkə üçün ağır nəticələrini hesablamaq gərək ki, çətin olmasın. Brüssel sammitinə isə sayılı günlər qalır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Zahid Orucdan Elmar Vəliyevə sui-qəsd və işıq böhranına dair şok açıqlamalar

## “Xeyli müddətdir ki, hakimiyyət çevrəsində qərarlaşan adamların böyük bir qismi siyasətdən qopub və özlərinin böyük korporativ işləri ilə məşğuldurlar”

**Mingəçevir və Gəncədə baş verən hadisələr ölkə gündəminin əsas hadisələri olaraq qalmaqdadır. Bu olaylarla bağlı Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Orucla söhbət etdik.**

**Deputatla müsahibəni təqdim edirik:**

**- Zahid bəy, Gəncədə baş verən sui-qəsdin motivi barədə qənaətiniz nədən ibarətdir?**

- Dövlət adamları əleyhinə həyata keçirilən hər bir aksiya hətta şəxsi və özəl səbəblərə malik olsa da, heç vaxt məhdud çərçivədə tutula bilmir, ictimai diskussiyalar siyasi rəng alır və öz başlanğıc məcrasından çıxır. Xüsusilə də 90-cı illərdən sonra həyata keçirilən qiyam, terror və təxribatların böyük bir qismi Azərbaycanın ozamankı xarici və daxili kursu, mühüm neft-qaz müqavilələri və regional geosiyasəti müəyyən edən hərəkətləri ilə birbaşa bağlı olub. Bir daha “Əsrin kontraktı”ndan sonra keçdiyimiz yolu və verdiyimiz itkiləri göz önünə gətirəndə dediklərimizə əmin olursunuz. Əlbəttə, kriminalistlər baş verən cinayətlərin sifarişçilərini və kənara aparan izlərini peşə fəaliyyətlərinin baş məqsədləri elan etsələr də, bizlər üçün əsas hədəf hər zaman dövlətin strateji kursu və cari addımlarının hansı fövqəladə hadisələrə, diversiyalara və siyasi qətllərə səbəb olduğunu müəyyən etməkdir. O mənada, digər icra hakimiyyətləri ilə müqayisədə Elmar Vəliyev sıradan bir insan deyildi və Gəncə kimi dövlətçilik tariximizin son 200 ilində müstəsna rola malik olan bir şəhərin rəhbərinə qarşı hücum məişət qəzəbi sayıla bilməzdi. Onu bir adamın intiqamı kimi təqdim etmək gerçək tablonu görməyə imkan vermir. Həqiqəti isə ölkəmizin daxilində dərindən kök salan kəşfiyyat mərkəzləri və casus qrupları bilir. Təəssüf ki, araşdırmaçı jurnalistika və fundamental analizlərlə məşğul olan ekspert camiəsi, beyin mərkəzlərinin sayı ildən-ilə azalıb və ona görə də gündəliyi dayaz mühakimələr, dedi-qodu səviyyəli açıqlamalar tutub. Bizə ən böyük zərbəni vuran elə budur: dərin elmi-siyasi yanaşmaların əvəzinə, ortamı zəbt edən səthi ağız məhsulları...

**- Yuxarıda dediyiniz professional fikir mühitini kim yaratmalıdır? Fakt budur ki, hakimiyyət nümayəndələri sırasında hətta Elmar Vəliyevə yaxın olanlardan belə reaksiya almaq olmur. Biz nəinki bir əyalət miqyasında, bəzən dövlət rəhbərinə qarşı olan hücumlar zamanı da çoxlarını “əhatə dairəsindən kənarda” görürük. Tapmaq olmur onları...**

- Haqlısınız. Doğrudan da prezidentimizə qarşı talibançı təfəkkürlə hücum edənlərin də qarşısına çıxanlar bir ovuc dövlət adamlarıdır. Bunun səbəbləri haqda çox danışmaq, sistemli və komandalı mübarizədə yaranan sapmaların doğurduğu nəticələrə dair yüzlərlə nümunə gətirmək olar. Hər halda, xeyli müddətdir ki, hakimiyyətin çevrəsində qərarlaşan adamların böyük bir qismi siyasətdən qopub və özlərinin böyük korporativ işləri ilə məşğuldurlar. Belə biganəliyin arzuolunmaz nəticələrinə dair onlarla tarixi nümunə gətirmək olar. Halbuki müxtəlif hakimiyyət qollarında təmsil olunan, mandatları və mühüm vəzifələri, rütbələri ilə cənab İlham Əliyevə mənən borclu olan on minlərlə insan öz missiyalarını düzgün qiymətləndirsəydi, mübarizə şəraiti və siyasi atmosfer indikindən xeyli fərqli olardı. Prezidentə hücuma biganə qalan adamların siyasi əqidəsi, daşıdıqları vəsiqələr və maddi sərvətlər mənə tamamilə boz rəngdə olan bir daireni xatırladır. Məgər həmin insan resurslarını mütləq təşkil etmək və hər gün tapşırıq vermək lazımdır ki, məsələn, gedin Vidadi İsgəndərli kimi rəzil məxluqa, işidçi təfəkkür və əxlaq daşıyıcılarına qarşı savaşa çıxın? Xeyr, belə inzibati tapşırıq və direktivlər Kommunist Partiyasını qorumamışdı və uzun müddətli dönəmdə səmərəsiz olduğu hamıya bəllidir. Gərək ölkəyə və mənsub olduğun platformaya bütün varlığınla bağlı olasan.

Ona görə də son hadisələri passiv siyasi mövsümün ayağına yazmaq olmaz. Həqiqətən də Elmar Vəliyevə qarşı edilən qəsdin məlum ictimai reaksiyalarını yönləndirmək üçün tribunası olan isimlərin böyük bir qismi susdular. Sosial mediada tüğyan edən mükalimələri hakimiyyət əleyhinə nifrət yaratma, inqilaba səsləmə, terroru siyasi mübarizə vasitəsitək seçməyə və digər təhlükəli çağırışların dəlalət etdiyi məqsədləri neytrallaşdırmağa heç də bütün qüvvələr qarşı çıxmadılar. Halbuki Gəncə kimi hər zaman Bakı və bütün ölkədaxili ictimai-siyasi mübarizələrə yön verən bir şəhərin rəhbərinə hücum lokal hadisə sayıla bilməzdi. Təsəvvür edin, cinayəti törədən şəxsin mifik bir obraza çevrilməsi anın içində baş vermədi. Əvvəlcə sürətli bir şəkildə Yunis Səfərovun namus və qeyrət yolunda belə amansız yola əl atdığı haqda fikirlər dövriyyəyə buraxıldı. Guya onun hamilə bacısının təhqir olunması əks tərəfi “samosud”a vadar edib. Daha sonra tablo bir qədər genişləndirildi və bir vaxtlar Xalq Cəbhəsi hakimiyyətinin iflasını doğuran 4 iyun qiyamının hekayəti ilə bir terrorçunun məramı arasında bərabərlik işarəsi qoyuldu. Sən demə, daim üsyanlar şəhəri kimi tanınan Gəncə diyarının bütün əhalisi “əli tətikdə mübarizəyə qalxmağa və fərdi xilas yolunu kollektiv hərəkata çevirməyə” hazırdır. Halbuki 25 il əvvəlki xaos dövrünə qayıtmaq üçün ölkədə mərkəzi və yerli hakimiyyəti dağıtmaq azdır, bir tapança və bir avtomatla Surət Hüseynov nümunəsi yaratmaq da qeyri-mümkündür. Gərək bütövlükdə ölkədə əldə olunan misilsiz uğurları büsbütün məhv edəsən ki, kimsə mənəvi, siyasi şəraiti, idarəçilik durumunu aparıb bir ovuc meydan romantiklərinin cahilliyi ilə bir tutsun. Əliyev siyasi erası tamam fərqli bir miqyasa malikdir və onun dövlətçilik irsini heç bir bölgədə kriminal, yaxud inqilabi addımlarla məhv etmək qeyri-mümkündür.

**- Vaxtaşırı Gəncə rəhbərinin daha yüksək vəzifələrə irəli çəkiləcəyi barədə də xəbərlər yayılıb. Belə bir təəssüratınız varmı ki, Elmar Vəliyevə qarşı edilən sui-qəsdin onun karyera perspektivi ilə bağlılığı olsun?**

- Bilirsiniz, Gəncənin statusu və oraya rəhbərlik edən adamların sonrada idarəetmənin daha yüksək eşelonlarına daşınmasını əslində müsbət nümunə saymaq lazımdır və onu ənənəyə çevirmək, hətta qanunvericiliklə bunu təsbit eləmək də olar. Elmar Vəliyevin şəxsiyyəti ətrafında cərəyan edən diskussiyalar, təhlillər və nəinki iki rayonu özündə birləşdirən, eləcə də bir neçə bölgədə təsir gücünə malik olan adamın əleyhdarları onu iddialı göstərmək üçün müxtəlif vəzifələr ətrafında proqnoz və xəyal məhsullarını reallıq kimi qələmə verməyə çalışırdılar. Görünür, bu yolla onu dövlət rəhbərinə ambisiyalı adam kimi təqdim edərək müəyyən qədər karyera pillələrinə baryer qoymaq istəyənlər ehtimal ki, olmamış deyildilər. Lakin Vəliyevləri tanıyanlar bilirlər ki, onlar heç zaman separatizmlə məşğul olmayıblar, fərqli antihakimiyyət dairələrində və qruplaşmalarında yer almayıblar, iki stulda oturmayıblar və ən başlıcası, Xanlar Vəliyev kimi təcrübəli dövlət adamı o nəslin üzərində böyük mənəvi təsirə, ağıllı yol göstərənə çevrilib. Ona görə də Elmar Vəliyevə Bakının gələcəkdə meri kimi güllə atıldığını iddia etmək üçün gərək xəfiyyə strukturunun adamı olasan. Hər halda, o fikrin hər zaman tərəfində olmuşam ki, boş qalan vəzifə müxtəlif qüvvələrin süni rəqabətini doğurur, vahid gücü sarsıdır, idarəetməyə bir qədər qeyri-sabitlik gətirir və ona görə də Hacıbala müəllimin boş qalan taxtını mütləq doldurmaq lazımdır. Yoxsa paytaxta boylananların sayı və müxtəlif kanalları hərəkətə gətirmələri tam komanda kimi formalaşmaya mənfi təsir edir. Lakin bir təhlilçi kimi mənə prezidentin seçkilərdən sonra geniş vüsət alan hökumətdə yeniləşmə kursunun artıq icra hakimiyyəti sisteminə keçidi dövründə son hadisələrin baş verməsidir. Əslində 2015-ci ildən MTN kimi cinayət yuvasının dağılması bütövlükdə köklü dəyişikliklərin aparıldığı tarixi mərhələ adlandırıla bilər. Kadr quruculuğunun yeni dönəmi seçkilərin ertələnməsi şəraitində xaricdən həyata keçirilməyə macal tapmayan planların ziddinə aparılmaqdadır. Gürcüstan və Ukraynadan, hətta Ermənistandan fərqli olaraq, Azərbaycanda dövlət və hökumət strukturları Moskva və Brüssellə razılaşdırılmadan aparılır. Kurasiya altında idarə olunan postsovet ölkələri ilə müqayisədə bizdə bu məsələdə də müstəqillik mövcuddur. Lakin mənim üçün Gəncədəki son hadisələr bir cəhətinə görə də daha çox əlamətdar mənaya malikdir. Diqqət yetirin, Quba və İsmayıllıda lokal toqquşmalar zamanı həmin qabarmaları doğuran təhqir iddialarının toparladığı əhali kütləsi ilə müqayisədə bu dəfə şəhərin mərkəzində həyata keçirilən siyasi terrora kiçik bir əhali qrupu belə qətiyyətlə qoşulmadı, hətta əksinə, həvəskar çəkilişlərdən göründüyü kimi, dəhşətli cinayət kimi yanaşan, onu ağlasığmaz əməl adlandırılan şəxsin ifadələri lentə düşdü. O üzdən komplo nəzəriyyəsi quranlar bunu unutmasınlar. “İnqilabi şəhər” deyib sakit düzənini pozmaq istədikləri tarixi bir yurdun isti axşamlarını silah səsləri ilə doldurmaq bizlərin hamısı üçün ağırdır. Cinayət törədən şəxsi Robin Quda çevirib tapança ilə ona əsatir düzlətmək, sovet hökumətinə qarşı çıxan qaçaq-qulduru proletariat hökumətinin qəhrəmanı kimi təqdim etmək təbirinə çox bənzəyir. Necə olub indi həmin o miflər? Elmar Vəliyevi deyil, əslində Gəncəni, hakimiyyət təmsilçilərini hədəf seçib son sui-qəsdin tablosunu böyüdənlər yaxşı bilir ki, o atəşin səsi hansı ünvanlara çatmalıdır, onun sifarişçiləri kimdir və gerçək motivi də nədən ibarətdir. Ermənistanda Rusiya siyasətinə qarşı çıxan elitanı parlament binasında gülləbaran edən Nairi Unanyan da “anlaqsız, sadə xalq içərisindən çıxan birisi” idi. Sonrası isə hamınıza bəllidir...



> “Təəssüf ki, araşdırmaçı jurnalistika və fundamental analizlərlə məşğul olan ekspert camiəsi, beyin mərkəzlərinin sayı ildən-ilə azalıb və ona görə də gündəliyi dayaz mühakimələr, dedi-qodu səviyyəli açıqlamalar tutub”

**- Zahid bəy, özü də Mingəçevirdə enerji blokunda yaşanan qəzadan sonra sanki Gəncədəki atəş sinxron şəkildə bir-birinə bağlandı. Bu hadisələr arasında hansısa rabitə axtarmağa dəyərmi? Ölkə prezidentinin keçirdiyi müşavirədə kəskin notlarla çıxış etməsini necə qiymələndirirsiniz?**

- Əslində xalqımızın tarixi yaddaşında enerji blokunun partladılması özü ilə bərabər, xeyli faciələr gətirib. AzTV-nin binasında 19 yanvar 1990-cı ildə yaşananlar və təəssüf ki, son qəza yenidən millətin nizamını pozan ovaxtkı hadisələrin üzərinə çəkilən dəmir-betonları yerindən oynatdı. Başa düşmək lazımdır ki, hər bir sahədə baş verən qısaqapanma lokal bir qurumun böhranı kimi qalmır, şaxələnir və böyüyür, bütün ölkənin üzərinə əksi düşür. Özü də on illər ərzində hakimiyyətin haqlı olaraq dünyaya bəyan etdiyi neft-qaz strategiyası və təhlükəsizlik salnaməsi bir relедən asılı olunca, müəyyən bir silkələnməyə məruz qalır və bizim hər birimizin içərisində yer alan güvəncə sanki hücum çəkir. Müşavirədə prezidentin daxili dünyasında yaşatdığı təlatümün məhz qeyd etdiyimiz səbəbə bağlı olduğunu görməmək mümkün deyildi. Uğurlu bir ölkə qurmaq üçün on illərlə fədakar və titanik bir zəhmət içərisində olan lider - cənab İlham Əliyev birdən-birə ən güclü saydığı platformadan zərbə alır. Söhbət heç iqtisadi ziyanlardan da getmir. Hərçənd onların da əhəmiyyəti danılmazdır və bizim pul itirməyə heç haqqımız yoxdur. Keçmiş hökumət dönəmində asan pulların bəzən səmərəsiz axıb getdiyi bir tarixçədən qurtulmaq üçün bizə indi hər manatın qədrini bilən məmur sistemi gərəkdir. Müasir, menecerlikdən baş çıxaran və dövlətçilik idealları yüksək olan komanda güclü bir liderin möhkəm dayağına çevrilməlidir.

Ona görə də ölkə daxilində diversifikasiya olunan enerji siyasətinə keçid elə həmin müşavirənin ən böyük nəticəsiydi. Müharibə şəraitində Mingəçeviri heç raketlərlə deyil, kiberhücumla sıradan çıxarmağa çalışan düşmənin bütün tank-topumuzu bir enerji mənbəyindən asılı qoymağa ölkənin Ali Baş Komandanı heç vaxt dözə bilməz. Digər tərəfdən, prezidentin haqlı qəzəbi məsuliyyət daşıyan hər kəsi xalq qarşısında üzrə, bağışlanmaya məcbur etməsi idarəçilik mədəniyyəti, dövlət ərkanı sayılmalıdır. Çoxları böyük dövlət adamı Əziz Əliyevdən və mərhum Zərifə Əliyevadan gələn qan bağları ilə daha çox mərhəmətə və rəhmdilliyə üstünlük verən, hər kəsi yaxşı nümunələrlə tərbiyə etməyə çalışan İlham Əliyevin 2015-ci ildə yaxın komanda üzvlərindən aldığı zərbələrə verdiyi kəskin reaksiyanı bir daha xatırladı. Ona görə də mənim nəzərimdə ölkə başçısı həm də mənsub olduğu irsin həm genetik, həm də mənəvi-siyasi varisi olaraq çox zaman hər iki xətti son dərəcə peşəkarlıqla tətbiq edir. Bir lider kimi mənim nəzərimdə İlham Əliyev 57 yaşlı Heydər Əliyevə çox bənzəyir.

***Qeyd:*** *Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə yaydığı məlumatdan əvvəl hazırlanan müsahibənin tam versiyası müsavat.com saytında dərc edilib.*

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018




# Hörmüz boğazının zərbəsi Azərbaycana da dəyə bilər

## ABŞ-İran qarşıdurmasının yeni fazaya daxil olması təhlükəli perspektivlər vəd edir; **Elçin Mirzəbəyli:** "İran bu boğazda yeganə söz sahibi deyil"; **Fikrət Yusifov:** "Belə olan halda humanitar fəlakətin ölçüləri dəhşətli dərəcədə böyük

**İran prezidenti Həsən Ruhani bəyan edib ki, əgər ABŞ öz müttəfiqlərinə təzyiq edərək Tehrandan xam neft almamağı tələb edərsə, o zaman regionda neft ixracına ciddi maneə və təhdidlər yarana bilər.**

Həsən Ruhani bu barədə İsveçrəyə səfəri zamanı deyib (azvision.az). "Amerikalılar iddia edirlər ki, İranın neft ixracatını tamamilə dayandırmaq istəyirlər. Lakin onlar bu bəyanatın anlamını dərk etmirlər. Çünki region nefti ixrac olunduğu halda, İran neftinin ixrac olunmaması üçün bu bəyanatın heç bir əhəmiyyəti yoxdur. Əgər siz (amerikalılar - red.) bacarırsınızsa bunu edin (İranın neft ixracını dayandırmağı nəzərdə tutut - red.) və nə ilə nəticələnəcəyini görün", - deyə Ruhani ABŞ-ı təhdid edib.

Ehtimal olunur ki, Ruhani bu sözlərlə İranın Hörmüz boğazını bağlayacağına eyham vurub. Bu isə ABŞ və onun körfəz müttəfiqləri üçün ciddi maneə və təhdiddir. Çünki Oman körfəzi ilə Fars körfəzi arasında yerləşən Hörmüz strateji əhəmiyyətli boğazdır. Bu boğaz neft ixrac edilən Fars körfəzindən açıq okeana yeganə dəniz çıxışıdır və dünyanın strateji cəhətdən ən mühüm nöqtələrindəndir. Dünya üzrə ixrac edilən neftin 20 faizi Hörmüz boğazı vasitəsilə daşınır. Boğaz həmçinin Körfəz ölkələrində hasil olunan neft və qazın ABŞ, Yaponiya və Avropa ölkələrinə çatdırılması üçün yeganə marşrut yoludur.

Xatırladaq ki, ABŞ administrasiyası sanksiyalarla əlaqədar olaraq, müttəfiq və digər ölkələrdən noyabrdan etibarən İrandan neft idxalını dayandırmalarını istəyir.

**Maraqlıdır ki, elə bu ayın ilk günündə İranın xarici işlər naziri Əli Əkbər Salehi ölkəsinin Hörmüz boğazını bağlayacağı ilə bağlı iddiaları rədd etmişdi. Ə. Salehi bildirmişdi ki, Hörmüz boğazı boğazın sahilində yerləşən bütün ölkələrə məxsusdur:** "Bu baxımdan boğazın bağlanılacağına dair bəzi şərhlər rəsmi mövqeyi əks etdirmir". Ancaq Ruhaninin dedikləri yeni situasiya yaradır. ABŞ-İran gərginliyinin artması bütövlükdə region üçün təhlükəli vəziyyət yaradır. O cümlədən Azərbaycan da mövcud duruma görə narahatlıq keçirməyə bilməz.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Hörmüz boğazı qlobal strateji əhəmiyyət daşıyan bir su hövzəsidir:** "Boğazın şimal hissəsi İranın, cənub tərəfi isə Birləşmiş Ərəb Əmirliyinin və Omanın yarıanklavının ərazisi sayılır. Hörmüz boğazının uzunluğu 195 km, eni 54 km-dir. Hörmüz boğazı hazırda Fars (ərəb) körfəzi ölkələrində əldə olunan neft və qazın ixrac edilməsi üçün yeganə dəniz yoludur. Hörmüz boğazı vasitəsilə Yaponiyaya, ABŞ-a və Qərbi Avropaya da neft və qaz ixrac olunur. Ekspertlərin hesablamalarına görə, dünya neftinin təxminən 30-33 faizi bu boğazdan keçməklə ixrac edilir. Bütün bunları xatırlatmaqda məqsədim Hörmüz boğazının nə qədər böyük strateji əhəmiyyətə malik olduğunu vurğulamaqdır". **E.Mirzəbəylinin sözlərinə görə, İran birinci dəfə deyil ki, ABŞ-ı və ərəb ölkələrini Hörmüz boğazını bağlamaqla hədələyir:** "Amma bununla bağlı heç bir konkret addım atmayıb və ata bilməsi də mümkün deyil. Çünki İran bu boğazda yeganə söz sahibi deyil. Beynəlxalq Dəniz Hüququna görə, Hörmüz boğazı okeanla əlaqəsi olduğuna görə açıq su hövzələri qrupuna aiddir və belə su hövzələri sərhədyanı dövlətlər arasında ortaq xətt prinsipinə görə bölünmür. Yəni İran boğazı hüquqi müstəvidə hər hansı bəhanə gətirərək bağlaya bilməz". **Politoloqun fikrincə, yeganə çıxış yolu boğazın hərbi yolla bağlanılmasıdır:** "İran 1988-ci ildə, İraq-İran müharibəsi zamanı belə bir cəhddə bulunmuşdu və nəticədə İranın "Səhənd" adlı freqatı və bir neçə gəmisi ABŞ silahlı qüvvələri tərəfindən məhv edilərək batırılmışdı. Hazırda İran hərbi dəniz qüvvələrinin arsenalında 3 fraqet, 2 korvet, 20 raket və elə bu qədər torpedo daşıyan katerlər, 13 desant gəmisi, 28 köməkçi və 3 sualtı gəmi, 22 təyyarə və 15 helikopter var. Şübhəsiz ki, bu potensialla İran ABŞ hərbi dəniz qüvvələrinin regiona nəzarət edən 5-ci donanmasına qarşı dayanmaq gücündə deyil. Bu baxımdan da İranın Hörmüz boğazını bağlayacağı barədə hədələrinin uzağa gedə biləcəyinə inanmıram. Əgər İran Hörmüz boğazını bağlamağa cəhd edərsə, o zaman hərbi müdaxilənin olacağı şübhəsizdir və bu halda İranı heç bir dövlət, o cümlədən BMT Təhlükəsizlik Şurasında İranla bağlı məsələlərdə Tehrana qarşı sərt davranışların əleyhinə çıxış edən Çin və Rusiya da əks mövqe sərgiləyə bilməyəcək".

**Sabiq maliyyə naziri, "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, professor Fikrət Yusifov isə qəzetimizə iki ölkə arasındakı gərginliyin səbəblərinə toxundu:** "Amerika Birləşmiş Ştatlarının İranla olan nüvə sazişindən çıxmasından sonra bu iki ölkə arasında münasibətlər getdikcə gərginləşir. ABŞ nə istəyir? Bu sazişdən çıxmaqda başlıca məqsəd nədir? İlk öncə onu deyək ki, hadisələrin bu şəkildə cərəyan etməsində İsrail amilini nəzərdən qaçırmaq olmaz. Nüvə sazişinin qüvvədə olduğu dövrdə İsrailin rəsmiləri bir neçə dəfə İranın bu sazişin şərtlərinə əməl etməyərək uranın zənginləşdirilməsi ilə gizli şəkildə məşğul olmasına dair bəyanatlar səsləndirmişdilər. Görünən odur ki, İsrail rəsmiləri son nəticədə ABŞ administrasiyasını və ilk növbədə prezident Donald Trampı İranın bu məsələdə səmimi olmadığına inandıra bilmişdilər. Trampın isə dəlisov, tələsik qərarlar qəbul etməsi artıq adi bir hala çevrilib. Avropa Birliyinə (AB) daxil olan əsas ölkələr ABŞ rəhbərliyinin nüvə sazişindən çıxmaqla bağlı qərarını dəstəkləmədilər. Hesab edirəm ki, bu, müvəqqəti bir addımdır və sonda AB-nə daxil olan aparıcı ölkələrin hamısı ABŞ-ı müdafiə edəcəklər. Çünki onlar ayrılmaz müttəfiqdirlər, İran isə həmişə Qərbə problem yaşatmağı bacaran bir İslam dövlətidir". **İran ona qarşı indiyə qədər mövcud olmuş sanksiyaların bərpa olunmasına və bundan daha sərt yeni sanksiyaların tətbiqinə nə ilə cavab verəcək? F.Yusifov:** "İran ilk növbədə uranın zənginləşdirilməsinə dair proqramın reallaşdırılmasına başlayacaq, daha sonra isə Yaxın Şərqdə ABŞ-ın maraq dairəsində olan münaqişə regionlarında vəziyyəti bir qədər də gərginləşdirməyə cəhd edəcək və nəhayət, ABŞ-ın İran neftinin ixracına mane olmasına konkret cavab olaraq Hörmüz boğazını bağlamaq yolunu seçəcək. Bu isə ABŞ və onun körfəz müttəfiqləri üçün ciddi bir problemin yaranması deməkdir. Bu boğaz Fars körfəzindən açıq okeana neft ixrac edilən yeganə dəniz çıxışıdır və dünyanın strateji cəhətdən ən mühüm nöqtələrindən biridir. Dünya üzrə ixrac edilən neftin 20 faizi Hörmüz boğazı vasitəsilə daşınır. Hadisələrin bu ssenaridə inkişafı sonda ABŞ və İsrailin İrana hərbi müdaxiləsi ilə nəticələnəcək. Bu isə regionda ən arzuolunmaz bir hadisə ola bilər. Təsəvvür edin ki, 81 milyon nəfər əhalisi olan İrandan hərbi münaqişə zamanı əhalinin 10%-i qaçqın kimi ölkəni tərk edir. Bu, 8 milyon insan deməkdir. Heç şübhəsiz bu qaçqınlar ilk növbədə qonşu ölkələrə - o cümlədən Azərbaycana üz tuta bilərlər. Belə olan halda humanitar fəlakətin ölçüləri dəhşətli dərəcədə böyük olacaq".

❑ **Cavid TURAN,**

# İrandan Azərbaycan ərazisi ilə Ukraynaya 260 kq narkotik aparan tutuldu




**Azərbaycan gömrükçüləri külli miqdarda narkotik vasitənin ölkə ərazisindən tranzit keçməklə İrandan Ukraynaya aparılmasının qarşısını alıblar.**

Dövlət Gömrük Komitəsindən musavat.com-a verilən məlumata görə, Astara gömrük keçid məntəqəsində, idxal gömrük nəzarəti xəttində Azərbaycan vətəndaşı Ağayev İmamverdi Abusət oğlunun idarə etdiyi "Mercedes-Benz Axor" markalı, 99DM054/99ZA371 nömrəli yük nəqliyyat vasitəsi risk analizləri nəticəsində saxlanılıb, gömrük və sərhəd xidmətinin əməkdaşları ilə birgə avtomobilə baxış keçirilib.

Həmin nəqliyyat vasitəsində olan "Sodium Karbonat" yükünün Azərbaycan Respublikasından tranzit keçməklə İranın "Mojtaba Shage Azar" şirkətindən Ukraynanın "LLC Lisintra" şirkətinin ünvanına aparılması nəzərdə tutulub. Nəqliyyat vasitəsi öncə stasionar rentgen qurğusu ilə yoxlanılıb və avtomobilin qoşqusunda olan "Sodium Karbonat" yükünün arasında şübhəli cizgilər müşahidə edilib. Bu səbəbdən qoşqudakı 20 ədəd paletdə, cəmi 800 ədəd polietilen torbada olan "Sodium Karbonat" yükü boşaldılıb və həmin yükə kinoloji xidmət itinin tətbiqi ilə baxış keçirilib. Xidməti it yükə reaksiya verdiyi üçün isə bütün polietilen torbalar açılaraq təkrar yoxlanılıb.

Bu zaman 2 ədəd paletdə - üzərində "Najı Sodium Bicarbonate Fire Extinguishing Powder" sözləri yazılmış 25 ədəd polietilen torbada ümumi çəkisi 260 kq narkotik vasitə aşkar edilib. Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin arayışına əsasən aşkar edilən narkotik vasitə kustar üsulla hazırlanmış heroindir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018





# Ermənistan müttəfiq Rusiyaya qarşı inamsızlıq və təlaş içində

## Erməni siyasi icmalçı: "Bölgədə əleyhimizə Rusiya, Türkiyə və Azərbaycandan ibarət "triumvirat" yaranıb"; Qarabağ məsələsi BMT-nin gündəliyinə qayıdır - səbəb...

**Cocuq Mərcanlı konfransı və orada Rusiyanın tanınmış fikir adamlarının ölkəmizin ərazi bütövlüyü xeyrinə verdikləri açıqlamalar düşmən Ermənistanda daha çox yeni erməni rəhbərliyinə xəbərdarlıq mesajı kimi qiymətləndirilib. Bütövlükdə işğalçı ölkədə hazırda bir xof var ki, Rusiya günün birində qərbyönlü sayılan erməni rəhbərliyini, Paşinyan hökumətini Azərbaycanın əli ilə, Qarabağ məsələsindən istifadə etməklə cəzalandıra bilər.**




Hərçənd baş nazir Nikol Paşinyan Ermənistanın Rusiya nüfuz dairəsində qalacağını, KTMT və Avrasiya Birliyindən çıxmayacağını bəyan etməkdə davam edir, belə görünür ki, Kremldə onun vədlərinə artıq bir elə inanmırlar. Buna əsaslar da az deyil. Məsələ ondadır ki, Nikol Paşinyan öz komandasını bütünlüklə anti-Rusiya kadrlarından təşkil edib, Qərb qurumlarına, NATO-ya, Avropa Birliyinə rəğbətini gizlətmir, gələn həftə isə NATO-nun Brüssel sammitinə qatılmağa hazırlaşır - hansı sammitdə ki, "Rusiya aqressiyası" mövzusu da alyansın gündəliyində olacaq.

*****

Bu üzdən qonşu ölkənin siyasi və ekspert çevrələrində işğalçı ölkə ətrafında yaranmış vəziyyətdən, şimal təhlükəsinə qarşı çıxış yolu üzərində baş sındırmağa başlayıblar. Rəy və yanaşmalar isə müxtəlifdir.

Məsələn, **Ermənistan parlamentinin keçmiş üzvü, siyasi icmalçı Erdcanik Abqaryan** hesab edir ki, Ermənistan üçün hazırda vəziyyət həqiqətən çox təhlükəlidir və bu üzdən gerçəyə olduğu kimi baxmaq, təxəyyülə qapılmaq lazım deyil. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, 1 in.am portalına müsahibəsində deyib.

**Sabiq deputatın fikrincə, bu, xüsusilə erməni hərbçilərinə və ölkənin siyasi rəhbərliyinə aiddir:** "Keçən iki on illik ərzində beynəlxalq münasibətlər indiki kimi heç vaxt kəskinləşməyib. Qərb birliyi çat verib, iqtisadi müharibə gedir, lokal konfliktlərin sayı və onların eskalasiyası artıb, bəzi dövlətlər militarizasiya xəstəliyinə tutulub və s. Bizim üçün ən təhlükəli reallıq odur ki, bölgəmizdə, faktiki olaraq, Rusiya, Türkiyə və Azərbaycandan ibarət yeni anti-erməni "triumvirat"ı yaranıb - hansı üçlüyün ki, iqtisadi və siyasi maraqları indi üst-üstə düşür. Qısa desək, Azərbaycan bu kimi beynəlxalq səviyyədə kəskinləşmələrə və digər reallıqlara hesabını quraraq da öz hədələrini davam etdirir və əmindir ki, onun üçlük üzrə müttəfiqləri və hay-küylü beynəlxalq laqeydlik "baş vermiş faktı" (ərazilərin güc yolu ilə azad edilməsini - "YM") həzm edəcək. Başqa yandan, gərək Rusiya imperialistlərinin ənənəvi satqınlığını və onların erməni inqilabına qarşı gizlədə bilmədikləri nifrəti də unutmayaq. Hesab edirəm ki, vəziyyət çox təhlükəlidir".

**Eks-deputat Ermənistanın Qərb və Rusiyaya münasibətdə "iki stul"da oturmaq siyasətinin artıq məqbul olmadığını deyib:** "Qərb üçün həddən ziyadə qeyri-məqbuldur ki, ermənilər Rusiyanın təsir dairəsindən hələ də çıxmaq istəmirlər. Qərbdə ermənilərin "Rus ayısı"nın ağuşunda ola-ola, demokratiya qurmaq arzusunu ciddi saymırlar. Azərbaycan isə onlardan ötrü müəyyən mənada müstəqilik nümunəsidir, çünki özünün müstəqilliyinin heç bir komponentini Rusiyaya güzəştə getməyib. Azərbaycanlıların nefti, tranzit kommunikasiyaları var. Azərbaycan ABŞ üçün bəzi Orta Asiya ölkələrinə, o sırada Əfqanıstana və Qırğızıstana giriş baxımından körpü rolu oynayır. Qərbin demokratiya məsələsində Azərbaycanla bağlı qətiyyətli qeydləri var. Elə bu və başqa reallıqlara nəzərən də Qərb Ermənistandakı inqilaba rəğmən, Azərbaycan-Ermənistan danışıqlarına neytral münasibət bəsləyir. Hazırda sülh danışıqlarının bərpası üçün real zəmin görmürəm. Hərçənd mən danışıqların 90-cı illərin əvvəllərindəki gündəliyə qayıtmasını da istisna eləmirəm. Eyni zamanda düşünürəm ki, erməni diplomatiyası hətta buna da indi hazır deyil".

*****

Qarabağ danışıqlarında isə ötən ilin oktyabrından başlayan durğunluq davam edir. Bu arada məlum olub ki, "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamə layihəsi yenidən BMT Baş Assambleyasının 73-cü sessiyasının gündəliyinə salına bilər. APA-nın məlumatına görə, bu, 73-cü plenar sessiyanın iş proqramında əksini tapıb.

Bildirilir ki, "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsi Baş Assambleyanın 72-ci sessiyasının gündəliyində olsa da, müzakirəyə təqdim olunmadığı üçün ötən il olduğu kimi, bu il də növbəti sessiyanın gündəliyinə daxil edilib. Bundan başqa, "GUAM məkanında həlli uzanan münaqişələr, onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün fəsadları" adlı qətnamə layihəsi də yenidən sessiyanın gündəliyə daxil edilə bilər. Sessiya çərçivəsində Birləşmiş Millətlər Təşkilatı ilə Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM arasında əməkdaşlığın da müzakirəsi istisna deyil. Baş Assambleyasının 73-ci sessiyası 18-26 sentyabr tarixlərində Nyu-Yorkda keçiriləcək.

Qarabağ məsələsinin BMT-nin müzakirəsinə qayıtması əslində problemin dinc həlli prosesinə ciddi təkan verməsə də, Azərbaycanın haqlı mövqeyinin, ərazi bütövlüyü və suverenliyimizin, konflikt ətrafında işğalçı Ermənistanın mövqeyi üzündən yaranmış təhlükəli durumun təsbiti baxımından bizə müəyyən dividentlər gətirə bilər. Söz yox ki, BMT-də də üç vasitəçi dövlətin - Təhlükəsizlik Şurasının daimi üzvləri Rusiya, ABŞ və Fransanın mövqeyi önəmli olacaq. Əfsus ki, bu dövlətlərin də başı hazırda başqa regional münaqişələrə qarışıb. Üstəlik, Qərblə, ələlxüsus da ABŞ-la Rusiya arasında yeni "soyuq müharibə" dövrü yaşanır.

İstənilən halda, Azərbaycan diplomatiyası mövcud regional və beynəlxalq şərtlər fonunda Dağlıq Qarabağ məsələsini irəli aparmağı bacarmalıdır. Həm də belə bir məntiqlə ki, konfliktin uzanması, artan müharibə riskləri vasitəçi dövlətlərin - Rusiya və Qərbin bölgədəki maraqlarına böyük təhlükədir və onların regionda toqquşa ehtimalını artırır. Başqa sözlə, problemin həlli vacibliyinə böyük güclərin diqqətini yönəltmək zərurəti heç vaxt olmadığı qədər aktual görünür...



# Ordumuzun irimiqyaslı təlimləri uğurla başa çatıb

**Dünən Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirakı ilə genişmiqyaslı təlimlərin yekunlarına dair xidməti müşavirə keçirilib.**

Musavat.com xəbər verir ki, Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevin təsdiq etdiyi plana əsasən müxtəlif poliqonlar və təlim sahələrində gündüz və gecə vaxtı keçirilən genişmiqyaslı təlimlərin nəticələrini təhlil edərək general-polkovnik Z.Həsənov bildirib ki, qoşunlar gizli şəkildə əsas istiqamətlər üzrə cəmləşərək gecə irimiqyaslı hücum əməliyyatlarını uğurla yerinə yetiriblər.

Müdafiə naziri qeyd edib ki, təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığı daha da təkmilləşdirilərək yeni səviyyəyə yüksəldilib, qərargahlar qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

General-polkovnik Z.Həsənov belə təlimlərin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Azərbaycan ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018

**Məlum olduğu kimi, Qida Təhlükəsizliyi Agentliyi ölkədə ət kəsimi sahəsində böyük dəyişikliklər etməyə başlayıb. Dəyişikliklərin mahiyyətində dayanan əsas məqam bütün ölkə üzrə ət kəsimi prosesinin xüsusi məntəqələrə cəmlənməsidir. Agentlik hesab edir ki, ət kəsiminin indiki vəziyyəti əhalinin sağlamlığı üçün böyük təhlükə yaradır. Buna görə də məsələni dövlət rəhbərliyi səviyyəsində qaldıraraq həll etmək niyyətindədir.**

# Bakıda sallaqxanalar üçün yer tapılmır

## Ət kəsimini mərkəzləşdirmək niyə mümkün olmur?




**Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlinin dediyinə görə, qanunsuz ət kəsimi məsələsi ilə əlaqədar monitorinq keçirilib:** "Monitorinq zamanı Azərbaycanda təxminən 111 baytarlıq sanitar ekspertiza laboratoriyalarının olduğunu öyrəndik və onların şəraitini araşdırdıq. Hesab edirik ki, bu məsələnin qarşısı sırf inzibati qaydada alınmalıdır. Çünki əks halda, görülən tədbirlər müvəqqəti xarakter daşıyacaq. Ona görə təklif etdik ki, hər bir rayonda və Bakı şəhərində ət kəsimi məntəqələri yaradılsın".

**Agentliyin sədri bildirib ki, artıq bununla bağlı Bakı Şəhəri İcra Hakimiyyəti və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə görüşlər keçirilib:** "Bakı kəndləri və paytaxt ətrafı regionlar üzrə əhali və təsərrüfat sayına görə kəsim məntəqələri yaradılacaq".

Qeyd edək ki, ət kəsimi sahəsindəki vəziyyət daim narahatlıq yaradan sahələrdən biri kimi diqqətdə olub. Ölkə rəhbərliyi səviyyəsində bu sahədəki problemlərin aradan qaldırılması üçün bir sıra addımlar atılıb. Bu addımlardan biri prezident İlham Əliyev tərəfindən 2014-cü ildə "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamın imzalanmasıdır. Həmin sərəncamda Kənd Təsərrüfatı Nazirliyinə İqtisadiyyat Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə uyğun ət kəsimi və satışı mərkəzlərinin yaradılması üçün tədbirlər görmək, həmçinin Səhiyyə Nazirliyi ilə birlikdə baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə cavab verməyən yerlərdə ət kəsiminin qarşısının alınmasını təmin etmək və görülən işlər barədə iki ay müddətində ölkə prezidentinə məlumat vermək tapşırılmışdı. Üstündən 4 il keçməsinə baxmayaraq, nazirlik sərəncamın icrasını təmin edə bilməyib. Yalnız Bakı şəhərində bir neçə kəsim məntəqəsi yaradılıb.

Buna görə də bu il iyunun 11-də prezident İ.Əliyev ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir (stasionar, modul və mobil tipli) kəsim məntəqələrinin təşkil olunması, qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması, istehlakçıların hüquqlarının müdafiəsi, qida təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədilə sərəncam imzalayıb.

Sərəncama əsasən, Qida Təhlükəsizliyi Agentliyinə yerli icra hakimiyyəti orqanları ilə birlikdə sahibkarlıq subyektlərini cəlb etməklə baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir (stasionar, modul və mobil tipli) heyvan kəsimi məntəqələrinin yaradılması (sakinlərin sıxlığı və onlar üçün əlverişli sahələr nəzərə alınmaqla) ilə bağlı tədbirlər görmək, yaradılacaq heyvan kəsimi məntəqələrinin müvafiq laboratoriyalarla təchiz olunmasına dair təkliflərini iki ay müddətində ölkə prezidentinə təqdim etmək tapşırılıb.

Bundan əlavə, Qida Təhlükəsizliyi Agentliyi Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə "Yeyinti məhsulları haqqında" Qanunun 4-cü və 8-ci maddələrinin tələblərindən irəli gələrək, baytarlıq-sanitariya və sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında satış məqsədləri üçün heyvan kəsimi hallarının qarşısının alınması istiqamətində tədbirlər görməli və bu sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Agentlik isə bu işlərin real icrasına iyulun 1-dən start verib.

Lakin əldə etdiyimiz məlumata görə, qurumun Bakıda kəsim məntəqələri üçün yer tapmaq məsələsində problemləri yaranıb.

Belə ki, Bakı rayonlarından redaksiyamıza daxil olan məlumata görə, xüsusilə şəhərin mərkəzi rayonlarında ət kəsiminin təşkil olunması üçün müvafiq ölçüdə yer tapılmır. Məlumdur ki, hətta modul tipli kəsim məntəqəsinin yaradılması üçün kifayət qədər böyük sahəsi olan yer lazımdır. Lakin paytaxt ərazisində dövlət mülkiyyətində belə sahəsi olan yer tapılması müşkülə dönüb. Artıq bir neçə rayonun icra hakimiyyətləri səviyyəsində yerin olmadığına dair agentliyə məlumat verildiyi bildirilir.

Onu da qeyd edək ki, son illərdə Azərbaycana həm ət, həm də diri mal-qara idxalında ciddi artım qeydə alınıb. Belə ki, Dövlət Gömrük Komitəsinin statistikasına əsasən, 2016-cı ildə ət idxalı 8 min 131,9 ton təşkil edibsə, 2018-ci ildə bu göstərici 18 min min 450,52 tona çatıb.

Bu ilin ilk beş ayı ərzində Azərbaycan yalnız Gürcüstandan 5 milyon 865,5 min dollar dəyərində 2 751,6 ton diri iribuynuzlu mal-qara idxal edib. Gürcüstanın Milli Statistika İdarəsinin hesabatına görə, ötən ilin eyni dövrü ilə müqayisədə qonşu ölkədən mal-qaranın idxalı 2,4 dəfə artıb. İdxal olunmuş mal-qaranın dəyəri ötən ilin analoji göstəricisi ilə müqayisədə 4 milyon 349,5 min dollar və ya 2,8 dəfə çoxdur.

Ət kəsimi məntəqələri üçün yer probleminin yaranmasına dair məlumatla bağlı Qida Təhlükəsizliyi Agentliyindən rəy almağa çalışdıq. Qurumdan göndərdiyimiz müvafiq sorğuya verilən cavab bizi xeyli təəccübləndirdi. Təəccüblənməyimizin səbəbini aydınlaşdırmağınız üçün agentliyə göndərdiyimiz sualları və aldığımız cavabı diqqətinizə təqdim edirik:

*Suallar:*

***1. Bakı şəhəri ərazisində ət kəsimi məntəqələrinin yaradılması üçün hansı işlər görülür?***
***2. Redaksiyamıza verilən məlumata görə, belə sallaqxanalar üçün Bakının rayonlarında 1000-1500 kvmetrlik sahələr ayrılması nəzərdə tutulur. Lakin hazırda xüsusilə mərkəz rayonlarda belə ərazilərin tapılmasında problemlər yaranıb. Bakının hansı rayonlarında yerlər müəyyənləşdirilib, hansılarında müəyyənləşdirilməyib? Ət kəsimi məntəqələri üçün hansı ölçüdə yer ayrılması nəzərdə tutulur?***
***3. Ət kəsimi məntəqələri nə zamana hazır olacaq? Bu ilin sonunadək hansısa rayonda belə məntəqə fəaliyyətə başlaya bilərmi?***

***Cavab:***

"Nəzərə almaq lazımdır ki, heyvan mənşəli qida məhsulları və onların istifadəsi qida zəncirinin yüksək risk dərəcəsinə malik olan sahəsidir. Ona görə də əhalinin sağlam qida məhsulları ilə təmin olunmasında ət kəsimi məntəqələrinin və bu istiqamətdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin üzərinə böyük məsuliyyət düşür. Bu məsuliyyətdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün ət kəsimi məntəqələrinin əhalinin qida təhlükəsizliyi tələblərinə, gigiyenik normalara uyğun formada fəaliyyətini həyata keçirməsi zərurəti meydana çıxır. Hazırkı şəraitdə bu sahədə səliqə-sahmanın yaradılması üçün sanitar gigiyenik tələblərə cavab verən mərkəzləşmiş ət kəsimi məntəqələrinin yaradılmasına ehtiyac var.

Hesab edirik ki, əhalinin sağlam ət və ət məhsulları ilə təmin olunmasında nəticə əldə etmək üçün bu istiqamətində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sahənin inkişafına öz tohfələrini verməsinin vaxtıdır.

Qida Təhlükəsizliyi Agentliyi tərəfindən bu istiqamətdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün lazım olan bütün köməkliklər həyata keçiriləcəkdir. Onu da qeyd edim ki, hazırda bu sahədə monitorinqlər davam edir və mövcud vəziyyətlə bağlı məlumatlar toplanılır. O ki qaldı ət kəsimi məntəqələrinin sayına və ünvanlarına, bununla bağlı təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra geniş məlumat veriləcəkdir".

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**



# Nazirlik Qum adasında kütləvi balıq ölümünün səbəbini açıqladı

**Xəzər dənizi Bakı buxtası Qum adasının 3-4 kvadratmetr olan sahilboyu dayaz akvatoriyasında kütləvi balıq ölümü müşahidə olunub.**

Bu barədə musavat.com-a Ekologiya və Təbii Sərvətlər Nazirliyindən məlumat verilib.

Hadisənin səbəblərini araşdırmaq üçün nazirliyin və AMEA-nın Zoologiya İnstitunun Hidrobiologiya laboratoriyasının əməkdaşları əraziyə baxış keçirib.

Baxış zamanı balıqların sivriburun kefalın körpələri olduğu məlum olub. Nazirlik AMEA-nın əməkdaşları ilə birgə balıqların ölüm səbəbini aydınlaşdırmaq məqsədilə balıq və su nümunələri üzərində analizlər aparıb.

Balıq nümunələri üzərində aparılan ümumi bioloji, morfoloji və fizioloji analizlərin nəticələrinə görə götürülən nümunələrdə infeksion xəstəliklərin törədiciləri və zəhərlənmə halları aşkar edilməyib.

Balıqların yaşadığı mühitdən götürülən su nümunələrinin fiziki-kimyəvi parametrləri üzərində də analizlər aparılıb. Analizlərin nəticələrinə görə, nümunələr götürülən günü balıqların yaşadığı mühitdə suda həll olmuş oksigenin miqdarının qeyri-optimal səviyyəyədək (suda həll olmuş oksigenin miqdarı 1.5-4.0 mq/litrə-dək (norma-6 mq/litr)) azalması və balıq orqanizminin bu dəyişikliklərə uyğunlaşmaması kefal balığı körpələrinin kütləvi tələfinə səbəb olub.

Qeyd edək ki, qeyri-optimal yaşama şəraiti daha həssas olan kefalın əsasən körpə balıqlarına təsir göstərib.

**❑ Musavat.com**

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018

# Uşaqlar yay tətilini harada və necə keçirsinlər...

## Təhsil eksperti: "Şagirdlər azı 21 gün istirahət etməsə, yeni tədris ilinə həvəssiz başlayacaqlar"

## Təhsil Nazirliyi: "Pulsuz yay düşərgələri var"



**Yay fəsli uşaq orqanizminin inkişafı üçün çox əhəmiyyətlidir. Buna görə də uşaqlar yay tətilini həm sağlamlıqları, həm də inkişafları naminə səmərəli keçirməlidir.**

Tətil planları əvvəlcədən - elə tədris zamanı hazırlanmalıdır. Yay tətili gəlib çatandan sonra uşağın 3 ayı necə keçirəcəyini planlaşdırmaq çox çətin olur. Belə olanda isə uşaq gününü ya küçədə, ya da kompüter qarşısında keçirməli olur.

Əvvəllər uşaqların yay tətilini səmərəli keçirə bilmələri üçün yay düşərgələri var idi. Uşaqlar üçün tədris ilinin sonunda pioner düşərgələri fəaliyyət göstərirdi. 1990-cı illərdən sonra bu düşərgələr dağılmağa başladı. Bunun əsas səbəbi düşərgələrin binalarında məcburi köçkünlərin məskunlaşmasıdır. İndi bu düşərgələr yox vəziyyətindədir.

**Təhsil eksperti Kamran Əliyev hesab edir ki, indi məktəbliləri düşərgələrə yönləndirmək də çox çətindir:** "Çünki hazırda Azərbaycanda 1,6 milyon şagird təhsil alır. Ümumilikdə bu düşərgələr 9 aylıq təhsildən sonra tətil adlandırılsa da, əslində tətil, istirahət deyil, öyrəndiklərinin təcrübəsini keçmək olmalıdır. Şagirdlər 3 ay tətil dövründə oxumaq, yazmaq vərdişlərini yadırğamamalıdır. Hazırda düşərgələrin sayı azdır və qiymətlər reallığı əks etdirmir. Həmin düşərgələrdə adambaşına düşən maliyyələşmə kifayət qədər yüksək göstərilib. Hazırda həmkarlar ittifaqlarının nəzdində 4 uşaq düşərgəsi fəaliyyət göstərir. Həmin düşərgələrdə 3 ay ərzində uşaqların ümumi qəbuletmə imkanı 3400 nəfərdir. Uşaqlar düşərgələrdə 21 gün müddətində qala bilər. Nabranda, Şüvəlanda "Olimp", "Şahin", "Aypara" uşaq düşərgələri ilə yanaşı Milli Elmlər Akademiyasının da uşaq-sağlamlıq düşərgələri var. Bütün valideynlər işlədikləri müddətdə Həmkarlar İttifaqına 1 faiz pul ödəyirlər. Bu da o deməkdir ki, bu valideynlərin uşaqları uşaq düşərgələrinə böyük endirimlə getməlidir. Qanunvericiliyə görə, 180 manatlıq göndərişə valideyn 27 manat ödəməlidir".

**Ekspert etiraf edir ki, hazırda uşaqlar üçün təşkil edilən yay düşərgələrinin səmərəsi yoxdur:** "Çünki yay düşərgələrində əslində maarifləndirici tədbirlər, kino nümayişləri, görkəmli şəxslərlə görüşlərin keçirilməsi, ölkə təbiətinin öyrədilməsi, ekoloji biliklərin aşılanması yox səviyyəsindədir. Sadəcə, uşaqları toplayıb, gəzdirir, şəkil çəkdirir və hesabat verərək işlərini bitmiş hesab edirlər. İndiki yay düşərgələri plan yerinə yetirmə və görüntü xarakteri daşıyır. Sovetlər dönəmində yay düşərgələri tamam fərqli idi. Xatırladım ki, Azərbaycan 1992-ci ildən BMT-nin uşaq hüquqları Konvensiyasına qoşulub. Bu konvensiyada göstərilib ki, uşaqların istirahət hüququ təmin edilməlidir. Bu gün uşaqlarımız yay tətilində valideynləri ilə dənizə çimməyə və yaxud meşələrə və çaylara gedirlər. Bu səfərlər zamanı uşaqlar yaşlarına uyğun olmayan mənzərə ilə qarşılaşırlar. Uşağın tətil vaxtı gördüyü mənzərə dəniz kənarında baş verənlər və valideynlərinin meşələrdə kabab çəkərək içki məclisi qurma mənzərələridir. Şagirdlər 9 aylıq təhsildən sonra minimum 21 gün istirahət etməsə, təbiət qoynunda olmasa, onlar yeni tədris ilinə həvəssiz başlayacaqlar. Təəssüf ki, bizdə istirahət dedikdə dənizə girmək, meşəyə getmək, yatmaq başa düşülür. Əslində isə bu, dünyada istirahətin ən son meyarlarıdır".

**K.Əliyev düşərgələrin qiymətlərinin, adambaşına düşən maliyyə xərclərinin reallığa uyğun olmadığını deyir:** "Adambaşına 300 manat düşərgə qiyməti real qiymət deyil. Adambaşına 21 gün üçün maksimum 50-70 manatdan artıq ola bilməz. Təhsil Nazirliyinin məktəbdənkənar fəaliyyəti çox aşağı səviyyədədir. Bütün bunların hamısı Təhsil Nazirliyi, rayon təhsil şöbələri, şəhər təhsil şöbələri tərəfindən həyata keçirilməlidir. Və hətta ilin əvvəlində şagirdlərə təlimdə yüksək göstəricilər göstərən şagirdlər olimpiadaların, yarışların, buraxılış imtahanlarını yüksək səviyyədə keçmiş uşaqlar ilin sonunda düşərgələrə göndəriləcək xəbərdarlığı edilməlidir. Uşaqlar üçün yüksək səviyyəli yay düşərgələri yaradılmalıdır. Bu, həm də əlavə iş yeri deməkdir. Azərbaycanda hazırda 160 min tələbə var. Demək olar ki, onların hamısı işsizdir. Onların 70 faizi regionlardan gələnlərdir. 3 ay ərzində həmin tələbələr boş qalmasın deyə, əlavə gəlir əldə etsinlər deyə, aidiyyəti qurumlar layihələr hazırlasınlar. Yaxşı olardı ki, Təhsil Nazirliyi, təhsil şöbələri, məktəb direktorları bu sahədə çalışsınlar. Bu, Azərbaycan təhsilində inqilabi bir addım olar".

**"Yeni Müsavat"ın Təhsil Nazirliyinə göndərdiyi sorğuya cavab olaraq bildirilir ki, uşaqların yay tətilini səmərəli keçirməsi üçün sözügedən nazirlik və bir neçə qurum tərəfindən pulsuz yay düşərgələri təşkil olunur:** "Təhsil Nazirliyinin əməkdaşlarının uşaqları üçün "Təhsil" Respublika İdman Mərkəzinin Zağulba Tədris İdman Bazasında iyulda düşərgə təşkil ediləcək. Bundan başqa, Uşaq-Gənclər İnkişaf Mərkəzi, İDEA İctimai Birliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Azərbaycan Nümayəndəliyinin birgə əməkdaşlığı ilə iyulda Lerik rayonunda "Bəbirləri mühafizə edək", İsmayıllı rayonunda "Zubrları təbiətimizə qaytaraq", Qax rayonunda "Ceyranları qoruyaq" adlı ekoloji yay düşərgələri təşkil ediləcək. Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən "Cücələrimin qonağı olaq" Art-düşərgə, Quba rayonunda ekoloji düşərgənin təşkili nəzərdə tutulur. Nazirliyin əməkdaşları üçün təşkil edilən və adıçəkilən düşərgələr ödənişsiz əsaslarla təşkil ediləcək. Respublika Uşaq-Gənclər İnkişaf mərkəzi tərəfindən təşkil edilən düşərgəyə mərkəzin fəal dərnək üzvləri cəlb edilir. Lerik, İsmayıllı və Qax rayonlarında təşkil olunan düşərgələr İDEA İctimai Birliyinin dəstəyi ilə keçirilir. Düşərgə 3 gün müddətindədir və həmin düşərgəyə yerli və qonşu rayonların təhsildə və ictimai işlərdə fəal məktəblilər cəlb olunurlar. Quba rayonunda təşkil edilən ekoloji yay düşərgəsinə Ekoklub üzvləri, "Cücələrimin qonağı olaq" adlı Art-düşərgəyə mərkəzin fəal dərnək üzvləri cəlb olunacaq. Hər iki düşərgə 7 gün nəzərdə tutulub".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**



# İstək" liseyinin fəaliyyəti dayandırıldı

**İyulun 5-də "İstək" liseyinin təsisçisi bu təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması ilə bağlı qərarın qəbul edilməsi barədə Təhsil Nazirliyinə müraciət edib.**

APA-nın məlumatına görə, müraciətdə "İstək" liseyində çalışan pedaqoji heyətin digər təhsil müəssisələrində işlə təmin edilməsi və şagirdlərin təhsillərini digər ümumi təhsil müəssisələrində davam etdirməsinə köməklik göstərilməsi məsələləri əksini tapıb.

"Təsisçinin müraciəti əsasında Təhsil Nazirliyi tərəfindən "İstək" liseyinin şagirdlərinin və pedaqoji heyətin ölkəmizin təhsil müəssisələrində yerləşdirilməsi məqsədilə işçi qrup yaradılıb və prosesin normal gedişini təmin etmək üçün müvafiq hazırlıq işlərinə başlanılıb. Təhsil Nazirliyi "İstək" liseyində təhsil alan şagirdlərin və onların valideynlərinin diqqətinə çatdırır ki, şagirdlərin seçimi əsasında müvafiq təhsil müəssisələrində təhsillərini davam etdirmələri, eləcə də bu məktəblərdə çalışan pedaqoji heyətin istəyindən asılı olaraq digər təhsil müəssisələrində yerləşdirilməsi üçün lazımi şərait yaradılacaq", - deyə məlumatda qeyd edilib.




# Bakıda əyləncə mərkəzində ölüm hadisəsi

**İyunun 5-də Novxanıda yerləşən "Aqua Park" əyləncə mərkəzində bədbəxt hadisə baş verib.**

Sosial şəbəkələrdə yayılan xəbərə görə, Zamiq Nağıyev adlı şəxs hovuzda çimərkən atraksiondan sürüşən bir nəfərlə (kimliyi məlum deyil) toqquşub. Zərbədən huşunu itirən Z.Nağıyevi hovuzdan çıxartsalar da, onun həyatını xilas etmək mümkün olmayıb.

Hadisə ilə bağlı musavat.com-un müxbiri "Aqua Park" əyləncə mərkəzinin meneceri Sevinc Əliyeva ilə əlaqə saxlayıb.

O, baş verən hadisə ilə bağlı yayılan xəbərin doğruluğunu təsdiqləyib: "Hadisədən təəssüflənirəm. Əraziyə nəzarət edən 6 mühafizə işçimiz və həkimlərimiz hadisə baş verən an oradaydılar. Çox çalışdılar, amma xəsarət alanı həyata qaytara bilmədik".

❑ **Elçin ƏKBƏR, Musavat.com**



## Evi yanan qaçqın çarəsiz durumda

### "Evimiz yanıb, yaşayış şəraitimizi minimum da olsa bərpa edə bilmirik, kömək edən yoxdur"

**Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Q.Vəzirov küçəsi ev 27-də yaşayan, Ermənistandan qaçqın olan Naibə Hacıyeva redaksiyamıza şikayət məktubu ünvanlayıb. Şikayətçi məktubunda qeyd edib ki, məcburi köçkün olduğu vaxtdan bu günə qədər ailəsi ilə birgə həmin ünvanda məskunlaşıb.**

Lakin ötən ayın 8-də evdə baş verən yanğın ailəsini çətin vəziyyətə salıb: "İyunun 8-də ailə üzvlərimizin evdə olmadığı bir vaxtda yaşadığımız evdə yanğın hadisəsi baş verdi. Nəticədə 110 kv.m-lik yaşayış evimiz və içindəki məişət əşyaları, şəxsi sənədlərimiz, o cümlədən digər yaşayış üçün zəruri olan əşyalarımız yandı. Qonşular da öz imzaları ilə akt təsdiqləyib bildiriblər ki, yanğın ərəfəsində enerji verilişi dayandırılıb, enerji verilişi bərpa olunan zaman yüksək gərginlik verilişi hiss olunub. Hadisə yerinə gələn yanğın söndürmə qrupunun işçilərinin, bələdiyyə, kənd icra nümayəndələrinin, mütəxəssislərin də verdiyi rəyə görə yanğına səbəb yüksək gərginliyin verilişi olub.

Yanğının ucbatından ailəmiz acınacaqlı vəziyyətə düşüb, maddi vəziyyətimiz daha da ağırlaşıb. Bu səbəbdən yaşayış şəraitimizi minimum da olsa bərpa edə bilmirik".

Şikayətçi qeyd edib ki, yaranmış vəziyyətlə bağlı rəsmi qurumlara müraciət etsə də, nəticəsi olmayıb:

"Bu barədə ərazi bələdiyyəsinə, ərazi icra nümayəndəliyinə və rayon icra hakimiyyətinə rəsmi müraciət etməyimizə baxmayaraq yerli hakimiyyət nümayəndələri hərəkətsizlik göstərər, müxtəlif bəhanələrlə bu işdə ailəmizə yardım etməkdən boyun qaçırır, dərdimizi dinləmək istəmir, "ötür-ötür" oynayırlar.

Qeyd edim ki, ailə başçısı işsizdir və iki övladım tələbədir. Maddi vəziyyətimiz çox ağır durumdadır. Üstəlik, evin bu cür yanması ailəmizi daha da acınacaqlı vəziyyətə salıb. Aidiyyəti qurumlardan xahiş edirəm, bu məsələdə bizə köməklik göstərilsin".

Məsələyə aydınlıq gətirmək üçün əməkdaşımız Sabunçu Rayon İcra Hakimiyyəti ilə əlaqə saxlayıb. Qurumdan bildirilib ki, şikayətçi Sabunçu qəsəbəsində yaşadığından sualımıza qəsəbə nümayəndəliyi cavab verə bilər. Qəsəbə nümayəndəliyindən isə tezliklə məsələ ilə bağlı açıqlama veriləcəyini bildirsələr də, sonradan zənglərimiz cavabsız qaldı.

**Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

**Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanovu öldürməyə cəhddə və külli miqdarda pulunu ələ keçirməkdə ittiham edilənlərin növbəti məhkəmə iclası keçirilib.**

# AzTV sədrinə sui-qəsd cəhdi ilə bağlı cinayət işinin məhkəmə istintaqı yekunlaşdı

### "Onun dediklərinə inanırsınız, mənim dediklərimi isə heçə sayırsınız" - təqsirləndirilən şəxs

Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə baxılıb. Təqsirləndirilənlər Şücayət Əkbərov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovdur.

Məhkəmə prosesində Şücayət Əkbərovun vəkili texniki vasitələrdən istifadə olunmaqla Arif Alışanovun və qızı Nigar Alışanovanın dindirilməsini istəyib. Vəkil həmçinin digər vəsatətində Şücayət Əkbərovun tibbi ekspertizadan keçirilməsini istəyib. Vəkil Ş.Əkbərovun səhhətinin həbsdə qalmasına imkan verib-vermədiyinin müəyyən edilməsini istəyib. Texniki vasitələrin köməyindən istifadə etməklə, canlı videogörüntü vasitəsilə ifadə verməsinə şərait yaradılmasını məhkəmədən xahiş edib. Zərərçəkən Hacı Babayev və Dəyanət Cəfərov da etiraz ediblər.

**Şücayət Əkbərov da vəsatəti dəstəkləyib. O bildirib ki, Alışanovun iddia etdiyi torpaqların hamısı hazırda sürücüsü Hacı Babayevin adınadır:** "Siz Alışanovun ifadəsini oxudunuz, onun dediklərinə inanırsınız. Amma mənim dediklərimi heçə sayırsınız. Alışanovun qətl hadisəsini deyirəm, deyirsiniz ittihamda yoxdur. Əvvəl deyirdilər belə hadisə olmayıb, indi də deyirlər, qız dağdan yıxılıb".

Prokuror vəsatəti məhkəmənin mülahizəsinə buraxıb. Məhkəmə vəsatətləri təmin etməyib. Prosesin davamında məhkəmə istintaqının başa çatdığı elan edilib.

Qeyd edək ki, məhkəmə zalında Aqşin Hüseynov digər təqsirləndirilən şəxslərdən ayrı şüşə qəfəsdə saxlanılır. A.Hüseynov digər təqsirləndirilən şəxslərdən fərqli ifadə verib və məhkəmə gedişində də onlar arasında dəfələrlə mübahisə yaranıb.

Bildirək ki, ittiham aktında yazılır ki, Ş.Əkbərov 2013-cü ilin iyulundan 2017-ci ilin yanvarınadək olan dövr ərzində Şamaxı rayonunda və Bakı şəhərində külli miqdarda özgə əmlakını və əmlaka olan hüquqları aldatma və etibardan sui-istifadə yolu ilə ələ keçirmək məqsədilə dələduzluq edərək yaratdığı mütəşəkkil dəstə tərkibində qanunsuz silah, döyüş sursatı əldə edib saxlayaraq, daşıyıb-gəzdirib, başqa cinayəti gizlətmək məqsədilə, tamah niyyətli və sifarişlə iki və daha çox şəxsi təkrarən qəsdən öldürməyə cəhd edib. O, həmçinin A.Alışanovun 4,5 milyon manatlıq əmlakını da ələ keçirməkdə təqsirli bilinir.

Rəsmi məlumata görə, Ş.Əkbərov həmin pul vəsaitləri və əmlakları geri qaytarmaq məqsədilə yaxın münasibətlərdə olduğu Musabi Namazov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovla dələduzluq cinayət əməlini gizlətmək üçün A.Alışanovu öldürmək istəyiblər. Ş.Əkbərov bunun müqabilində dəstə üzvləri Q.Cəbiyevlə M.Namazova 600 min manat pul vəd edib.



Arif Alışanov

İttihama görə, M.Namazov dəstə üzvləri tərəfindən törədiləcək qəsdən adam öldürmə və qanunsuz silah əldə etmə, daşıma, gəzdirməklə saxlama əməlləri barədə polis orqanlarına vaxtında məlumat verib.

Polis əməkdaşları Ş.Əkbərovu, Q.Cəbiyevi, M.Namazovu, A.Hüseynovu və Z.Şirinovu saxlayıb. Məhkəmənin qərarı ilə Ş.Əkbərov, Q.Cəbiyev, A.Hüseynov və Z.Şirinovun barəsində həbs-qətimkan tədbiri seçilib. M.Namazovun barəsində isə polisin nəzarətinə verilmə qətimkan tədbiri ilə bağlı qərar çıxarılıb.

Ş.Əkbərov Cinayət Məcəlləsinin 29,120.2.1-ci (qəsdən adam öldürməyə cəhd, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürməyə cəhd), 29,120.2.5-ci (tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürməyə cəhd), 29,120.2.6-cı (başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürməyə cəhd), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi öldürməyə cəhd), 29,120.2.10-cu (təkrar adam öldürməyə cəhd), 178.3.2-ci (dələduzluq, külli miqdarda törəldildikdə), 228.3-cü (qanunsuz olaraq odlu silah qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

Digər şəxslərin barəsində isə 29,120.2.1, 29,120.2.5, 29,120.2.6, 29,120.2.7, 29,120.2.10, 228.3-cü maddələrlə ittiham irəli sürülüb.

**İlkin MURADOV,**
**Musavat.com**

# «Bakcell» Dağlıq Qarabağda qanunsuz fəaliyyətə etiraz edib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) mobil operatoru "Etisalat"la Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyət göstərən "Karabakh Telecom" arasında rouminq razılaşmasının ləğvindən məmnunluğunu ifadə edir.**

**Özünün uzunmüddətli rouminq partnyoru olan "Etisalat" şirkətinin "Karabakh Telecom"la əməkdaşlığa başlaması ilk günlərdən «Bakcell» şirkətini narahat edib. Bununla bağlı Şirkət rəhbərliyi tərəfindən dəfələrlə "Etisalat"a rəsmi məktubla müraciət edilib. Məktublarda qeyd olunub ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının ayrılmaz hissəsidir və bu fakt beynəlxalq səviyyədə tanınır. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" şirkəti ilə əməkdaşlıq "Etisalat" şirkətinin beynəlxalq nüfuzuna böyük zərbədir və bu əməkdaşlıqdan əldə olunan gəlirlər qeyri-qanuni rejimin fəaliyyətinin maliyyələşdirilməsi üçün istifadə olunur.**

**"Etisalat" mobil operatoru isə öz növbəsində "Karabakh Telecom"la əməkdaşlığını məhz "Karabakh Telecom"un Ermənistanda rəsmi qeydiyyatının olması ilə əsaslandırırdı. Lakin «Bakcell» qəti mövqe ortaya qoyaraq bildirib ki, "Etisalat" və "Karabakh Telecom"un əməkdaşlığının davam etməsi "«Bakcell»" ilə "Etisalat" arasındakı biznes münasibətlərinin birtərəfli şəkildə dayandırılması ilə nəticələnəcək.**

**«Bakcell» şirkəti Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bu istiqamətdə atdığı addımları yüksək dəyərləndirir və problemin həllində göstərdiyi səylərə görə dərin təşəkkürünü bildirir.**

***

**«Bakcell» haqqında**

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 3G və 4G mobil internet xidməti göstərir.**

**Ölkədə ən yaxşı mobil internet xidməti kimi öz təsdiqini tapmış 3G xidmətindən sonra, 5 may 2015-ci il tarixində «Bakcell» özünün 4G LTE xidmətinin kommersiya istifadəsinə verilməsini elan edib. Mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən 4G xüsusilə mobil olmaq və bütün məkanlarda internetə yüksək sürətli çıxış imkanı əldə etmək istəyən istifadəçilər üçün nəzərdə tutulub. Hazırda Bakı və Abşeron sakinləri ilə yanaşı, Gəncə şəhəri, Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının əhalisi də Şirkətin təqdim etdiyi yüksək sürətli 4G internetindən istifadə edə bilirlər. 2018-ci ildə «Bakcell» özünün LTE şəbəkəsini ölkənin digər regionlarına doğru genişləndirir. «Bakcell» şirkəti Bakı metrosunda 4G xidməti təmin edən ilk mobil operatordur.**

**Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən «Bakcell» şirkəti Azərbaycanda "Best in Test" (sınaq nəticələrinə görə, ən yaxşı) adına layiq görülüb. 2017-ci ilin avqust ayında aparılan testlərin nəticələrinə əsasən, «Bakcell» Azərbaycanda ümumi şəbəkə təcrübəsinə görə ən yüksək göstəriciyə, Bakı və ölkənin digər böyük şəhərlərində isə sınaq nəticələrinə görə ən yaxşı mobil internet şəbəkəsinə malikdir.**

YENİ MÜSAVAT
N 145 (7034) 7 iyul 2018



# Rusìya üçün son xor, yoxsa Xorvatìya üçün "Tamburìnì"



## Xorvatiya millisi bu axşam meydan sahiblərinə uduzarsa, azarkeşləri onları asan bağışlamayacaq...

**Rusiyada keçirilən XXI dünya çempionatında bu gün daha 2 yarımfinalçı müəyyənləşəcək. Saat 18:00-da İsveç millisi İngiltərə, saat 22:00-da isə ev sahibləri Rusiya Xorvatiya millisi ilə qarşı-qarşıya gələcəklər.**

İsveç və İngiltərə indiyədək müxtəlif turnirlərdə 23 dəfə qarşılaşıblar. Bu görüşlərdə həm İsveç, həm ingilislər hərəyə 7 dəfə qalib gəliblər, 9 oyunda isə qalib müəyyənləşməyib. Bu komandalar mundiallar tarixində yalnız bir dəfə-2002-ci il Yaponiya və Cənubi Koreyada düzənlənən DÇ bir qrupda mübarizə aparıblar. Həmin görüşdə oyun sülhlə bitib: 1:1. Sonuncu dəfə komandalar 2012-ci ildə Avropa çempionatında bir qrupda mübarizə aparıblar. Həmin görüşdə ingilislər 3:2 hesablı qələbə qazanıblar.

İsveç məlumdur ki, mudiallarda cəmi bir dəfə, 1958-ci ildə ikincilik qazanıblar. İsveç finalda Braziliyaya 2:5 uduzub.

Yan Anderssonun rəhbərlik etdiyi millinin Rusiyada uğurlu çıxış edə biləcəyi hələ qrup mərhələsi başlayanda deyilirdi. Bu komandanın həm seçmə mərhələdə, həm DÇ-də keçirdiyi oyunları yada salanda heyrət edirsən. Fransa və Hollandiya ilə bir qrupda seçmə mərhələdə olub. Seçmə mərhələnin sonunda Hollandiyanı üstləyərək qrupda ikinci olub. DÇ gəlmək üçün "pley-off"da İtaliyanı mübarizədən kənarda qoyub. Mundialda Almaniya kimi son dünya çempionu ilə bir qrupa düşüb. İndi isə daha bir adlı-sanlı komanda ilə üz-üzə gəlir. Fransa, Hollandiya, İtaliya, Almaniya və İngiltərə. Maraqlıdır deyilmi? Bura qrup mərhələsində böyük hesabla qalib gəldiyi təcrübəli Meksikanı da əlavə edə bilərik, 1/8-də mübarizədən kənar qoyduğu İsveçrəni də. Futbol mütəxəssislərinin dediyinə görə, Zlatan İbrahimoviç komandadan getdikdən sonra İsveç daha monolit komandaya çevrilib. 8 güclü komanda sırasına düşmək artıq uğurdur, amma Skandinaviya təmsilçiləri dayanmaq fikrində deyillər. İngilislər 1/8 mərhələdə qarşılaşdıqları Kolumbiyadan daha yaxşı komandadır. Onların qapısına əsas vaxtda cəmi bir top vursalar da, Kolumbiyaya penaltidə uduzub evə qayıtmaları ədalətsiz olardı. İngilislər publika üçün oynamayan komandadır, yəni yaraşıqlı oynamırlar, onlar üçün əsas nəticədir. İngiltərə yeganə komandadır ki, heyətində bir nəfər də olsun legioner yoxdur. Futbolçular hamısı Premyer Liqa klublarından cəlb olunub. Komandada gənclər -"təzə qan" var. İngilislər Kolumbiya ilə oyunun sonunda penaltilərdən evə getmək kimi illərin lənətindən xilas oldular. Son üç mundialda penaltilərdə uduzan komandanın tilsimi qırması yaxşı əlamət hesab olunur. Mundialın ən sərrast oyunçusu da hələ ki ingilis Harri Keyndir. Əslində komandanın lideridir elə "Tottenhemin"in forvardıdır.

Statistika göstərir ki, bu komandaların qarşılaşdıqları görüşlərdə yüz faiz favorit yoxdur, şanslar yarıbayarıdır. İsveçin yaxşı müdafiəsi, ingilislərin qol vura bilən futbolçuları var. İngilislər bu dəfə şansını penaltilərə etibar etməməlidir. İrəli getmək istəyirlərsə, erkən qol vurmağa çalışmalıdır. Bu gün standart vəziyyətlərdən kimin daha hazırlıqlı olması da görüşün taleyini həll edə bilər. "İkinci mərtəbədə" təkcə ingilislər deyil, ucaboy İsveç də yaxşı oynayır...





### Bu ruslar ki, var..

Rusiya və Xorvatiya indiyədək cəmi 3 dəfə qarşılaşıblar. Bu oyunların 2-si Avropa çempionatının seçmə mərhələsində olub. Hər iki oyun qolsuz bərabərliklə bitib. Sonuncu dəfə isə 2015-ci ildə Rusiyada yoldaşlıq görüşü olub. Xorvatlar həmin qarşılaşmada 3:1 hesabı ilə qalib gəlib.

Rusiya mundial ərəfəsi ən çox tənqid edilən komandalar sırasında idi. Stanislav Çerçesovun rəhbərlik etdiyi milli komanda yoldaşlıq görüşlərində gücünü sınayardı və hər dəfə ölkə mətbuatında tənqidlərlə üzləşirdi. Amma mundialda Rusiya daha yaxşı komanda təsiri bağışlayır. İndi o tənqidlər də unudulub və bir eyforiya, komandaya inam havası yaranıb. Özlərinə "Messi", "Ronaldo" və Akinfeyevin timsalında Lev Yaşin tapıblar.

Bu, əlbəttə ki, yaxşı haldır. Özgənin futbolçusunu kumir edincə, öz milli komandadakı oyunçularla fəxr et. Ruslar hələ ki bu havadadırlar. Bu gün Rusiya uduzsa belə komanda maksimum proqramı yerinə yetirmiş olduğundan sərt tənqidlər olmayacaq. Ruslar komandasından razı qalmalıdırlar. Pis nəticə göstərmədilər, azarkeşlərin ürəyini qürurlandırdılar, İspaniyanı mübarizədən kənarlaşdırdılar, "ruslar futbol oynaya bilmir" kimi stereotipdən qurtuldular. Yəni təbliğata və niyə də "yarımfinala düşməyək" istəklərinə baxmayaraq, bu axşam Xorvatiyaya uduzsalar belə, alqışlanacaqlar. Ev sahibi kimi nə bacardılarsa etdilər.

Amma Xorvatiya uduzarsa, azarkeşləri onları asan bağışlamayacaq. Heyəti tam bir ulduz kolleksiyası olan Xorvatiya Danimarka ilə qarşılaşmada özünü çox çətinə saldı. Qrup mərhələsində maksimum xal qazanan xorvatlar(9 xal) Danimarkanı penaltilərlə keçə bildi. Xorvatiya bu son oyunla ürəyimizə "xal" saldı. Bu səbəbdən Xorvatiya bu gün özünə qayıtmasa, meydanın atmosferindən özünü qorumasa, yarımfinal çətin olacaq. Rusiya üçün son xor, yoxsa Xorvatiya üçün "Tamburini" çalınacağını bir neçə saatdan sonra biləcəyik...

**❑ Nazim SABİROĞLU,**











YENİ MÜSAVAT

Son səhifə

N 145 (7034) 7 iyul 2018



# Barmağı kök olduğu üçün bankda 25 min dolları başqasına yolladı

**Avstraliyalı kişi bank əməliyyatları zamanı yanlışlığa yol verib və digər bankın naməlum müştərisinin hesabına yetərincə böyük məbləğ keçirib. Bu barədə "9 News" saytı xəbər verib. Çox da böyük olmayan "Whole Landscapes" adlı ailə şirkət tikinti öncəsi bir torpaq sahəsinin təmizlənməsi ilə bağlı sifariş alıb. İşin həyata keçirilməsindən sonra sifarişçi onlara görülən işlə bağlı hesab yollasa da, pulu ödəyən olmayıb. Məlum olub ki, onlar 25 min Avstraliya dolları məbləğində pul ödəməli olsalar da, bunu etməyiblər.**

Daha sonradan məlum olub ki, sifariş verən şirkət hesaba pul keçirən zaman bir rəqəmi səhv yığdığı üçün sözügedən məbləğ başqa bir hesaba keçib. Son nəticədə isə pul tamam başqa bir bankın eyni rəqəmli hesabına göndərilib. "Bu, mənim gonbul barmaqlarımla etdiyim sadə bir səhvdir" - bunu da səhvi edən şəxs bildirib. O, bu şikayətlə öz bankına müraciət etsə də, oradan ona bildiriblər ki, bu məsələ ilə bağlı hər hansı yardım edə bilməzlər. Bankda bildirilib ki, pulun yanlışlıqla getdiyi hesab sahibi razılıq verməsə, köçürmə əməliyyatı ləğv oluna bilməz. Amma hansısa qeyri-müəyyən səbəbdən həmin şəxs də əlaqələrə çıxmır. Bu hadisədən yerli xəbərlər kanalı xəbər tutan kimi, zərərçəkmiş səhvən yolladığı 25 min Avstraliya dollarının 15 min dollarını geri qaytarmağa nail olub.

# Bu kapsul izolyasiya edir

**Nyu-Yorkdan olan tələbə maraqlı bir kəşfə imza atıb. O, insanı əhatə edən dünyadan müvəqqəti olaraq izolyasiya olunmağa yardım edən əl cihazı hazırlayıb. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər yayıb. Edern Lyu adlı tələbənin kəşfi bədənin yuxarı hissəsinə taxılan kapişonu xatırladır. Amerikalı bu kəşfi Nutshell adlandırıb. Lyunun danışmasına görə, Nutshell ideyası onun ağlına yemək zamanı gəlib. O, həmin anda vaxtın dəyəri və onun rasional istifadəsi barədə düşünüb: "Hər bir tələbə kimi mən də qaçaqaçda yeyirəm. Bu vaxt mənim ağlıma gəldi ki, lança ayırdığım 5 dəqiqəni mən həm də zehni məşğuliyyətə sərf edə bilərəm. Müəllifin sözlərinə görə, konstruksiya yemək zamanı insanı ətraf mühitdən ayırmağa, yeməyə fokuslanmağa və yuxuda meditasiyaya xidmət edir. Lyu əmindir ki, yenilik gündəlik stresin miqdarını azaldacaq.**



Amerikalının şəxsi kəşfini nə zaman bazara çıxaracağı bəlli deyil. Hazırda Lyu Nyu York İnstitutu olan "School of Visual Arts"da təhsil alır. "İzolyasiya üçün kapsula" dərs tapşırıqlarından birinin edilməsi zamanı üzə çıxıb.

# Kirayə götürdüyü DVD-ni qaytarmadığı üçün həbs oluna bilər




**Amerikalı videokirayə yerindən kirayəyə götürdüyü DVD-ni geri qaytarmadığı üçün həbs oluna bilər. Bu haqda lenta.ru saytı xəbər verir. 2014-cü ildə Amerikanın Oklaxoma ştatının Klermor şəhərindən olan bir kişi "Üçüncü adam artıqdır" adlanan bir filmi kirayəyə götürüb. "Bu DVD üçün mən cəmi 5 dollar ödəmişdim", bunu da kişi deyib.**

Tezliklə Perri evsiz qalıb. Köçməzdən öncə o, bütün əşyalarını, o cümlədən onda qalan DVD-ni də qutuya qoyub. Videokirayə mağazası bir neçə il onunla əlaqə saxlamağa cəhd göstərsə də, buna nail olmayıb. Sonda məğlub olaraq, bölgə prokurorluğuna müraciət edib. Hüquq-mühafizə orqanları Perrini axtatıb tapıblar. Həmin vaxt gənc adam Talsa şəhərində yaşayırdı. Ona borcu barədə məlumat veriblər. Sonucda məlum olub ki, Perri bu diskə görə 218.07 dollar ödəyəcək. Belə ki, videokirayə mağazası diskin özünə görə 19 dollar, bu müddətdə onlara vurulan maddi ziyana görə isə 25 dollar alacaq. Yerdə qalan məbləğ isə prokurorluğa keçəcək. Perri bu məbləği ödəməyəcəyi halda, onun həbsi üçün rəsmi qərar veriləcək.

Kişi bu məbləği ödəməyə hazırdır. Amma iddia edir ki, indiki məqamda onun bu qədər pulu yoxdur. "Mən başa düşürəm ki, videokirayə mağazası lazım olanı edir. Amma məsələni həbsə, həbs barədə qərara daşımadan da həll etmək mümkündür".

May ayında xəbər yayıldı ki, Amerikanın San Fransisko şəhərində ictimai kitabxanaya 47 il qabaq götürülən kitabı geri qaytarıblar. Buna görə onu özündə saxlayan şəxs 10.1 dollar cərimə ödəyib.




**QOÇ** - Astroloji göstəricilər yalnız qonaqlıq və səfərlər üçün uğurlu ərəfə olduğunu bildirir. Odur ki, digər işlər barədə baş sındırmağa dəyməz. Nəzərə alın ki, mənfi yüklü Ay da sizin bürcdədir.

**BUĞA** - Ulduzların düzümü maraqlı insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Amma onların arasında bir neçəsi ovqatınızı aşağı salmağa çalışa bilər. Uzaqgörən və dözümlü olun.

**ƏKİZLƏR** - Qarşınızda füsunkar bir gün var. Bəxtinizə inanırsınızsa risk etməyə dəyər. Çünki gözlənilməz sürprizlər yolunuzu gözləyir. İstənilən ikitərəfli əməkdaşlıq uğurludur.

**XƏRÇƏNG** - Təxminən saat 14-ə qədər özünüzü gərgin situasiyalardan qorumağa çalışın. Köhnə palan içi tökməyin. Bunu bacarsanız, günortadan sonra sevindirici xəbər eşidəcəksiniz. Maraqlı təkliflər də gözlənilir.

**ŞİR** - Hiss olunur ki, səhhətiniz ürəkaçan deyil. Lakin narahatçılığa əsas yoxdur. Çünki həkim əlinə düşməyəcəksiniz. Günortadan sonra sevindirici xəbər eşidəcəyinizə inanın. Səfəri təxirə salın.

**QIZ** - Mövcud problemlərinizi həll etmək üçün kənardan dəstək almalısınız. Əks təqdirdə uğursuzluqla üzləşəcəksiniz. Saat 14-17 aralığı bu baxımdan çox əlverişlidir.

**TƏRƏZİ** - İxtiyarınızda olduqca gərgin bir gün durur. Bəri başdan bütün vacib işlərinizi təxirə salın. Münaqişələrə həvəs göstərməyin, neytral olmağa çalışın. Bəxtinizdə pul da var.

**ƏQRƏB** - Maliyyə problemlərinizin artması ümumi ovqatınızda mənfi çalarlar yaratmaqdadır. Azacıq səbr edin, yaxın vaxtlarda kisəniz ağırlaşacaq. Gün boyu əsas diqqətinizi sevgiyə yönəldin ki, rahatlanasınız.

**OXATAN** - Göy qübbəsi yalnız ailə-sevgi məsələlərində uğurlara yaxın olacağınızı bildirir. Fəaliyyətdə və ya digər münasibətlərdə isə vəziyyət heç də qənaətbəxş olmayacaq. Yalan danışmayın.

**OĞLAQ** - Yaxşı olar ki, saat 13-ə qədər bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli sövdələşmələrin iştirakçısı olacaqsınız.

**SUTÖKƏN** - Daxili tərəddüdləriniz ümumi sabitliyinizi pozmaqdadır. Nəyi, necə edəcəyinizi müəyyənləşdirə bilmirsiniz. Odur ki, həyata açıq gözlə baxın. Enerjinizi sevgidən alın.

**BALIQLAR** - Nə qədər yorucu təqvim olsa da, usanmağa dəyməz. Çünki yeni həftədə zəhmətinizin bəhrəsini görəcəksiniz. Saat 17-dən sonra ürəyinizə yaxın simsarlarınıza baş çəkməyə çalışın. Dərman qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ekzotik pedikür etdirmək istədi, dırnaqlarını itirdi



**Nyu-York sakini "balıq pedikürü" adlanan ekzotik spa-prosedurundan sonra dırnaqlarını itirib. Bu barədə "Science Alert" jurnalında yazılıb. Xidmətin özəlliyi ondan ibarətdir ki, kiçik balıqlar müştərinin ölmüş dəri qatına nüfuz edirlər. 20 yaşlı amerikalı qız ayaqlarındakı qəribə ağrılardan sonra həkimə müraciət edib. Həkim onda onixomadezisin qeyri-ənənəvi formasını aşkar edib. Bu formaya əsasən, insanların ayaq dırnaqları uzanmır, əksinə, daha həssas və qırılan olur, dəridə yavaş-yavaş yox olurlar.**

Daha sonradan amerikalı qız müəyyən etdi ki, ayağındakı problemlər ekzotik spa-prosedura baş çəkəndən sonra yaranıb. Onu müalicə edən dermatoloqun fikrincə, bu nəticənin yaranmasına ayaq dırnaqlarına düşən infeksiya səbəb olub. Nəşr eyni zamanda xəbər verir ki, bu, Garra görünüşlü balıqların səbəb olduğu ilk belə haldır. Müştərilər faktiki olaraq əmin ola bilmirlər ki, pedikür zamanı istifadə edilən alətlər tam dezinfeksiya olunub.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100